**Azərbaycan Respublikasının Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası**

**Ali təhsilin bakalavriat səviyyəsi üzrə**
**"Humanitar və sosial ixtisaslar qrupu"nun**
**050213 – "Beynəlxalq münasibətlər" ixtisası üçün**

# "BEYNƏLXALQ TƏŞKİLATLAR" fənninin

# proqramı

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 yanvar 2018-ci il tarixli F-28 №-li əmri ilə fənn proqramı kimi təsdiq edilərək nəşr hüququ (qrif) verilmişdir.

**Bakı – 2018**

**Elmi redaktor:** **Əli Həsənov**
**professor, tarix elmləri doktoru**

**Tərtib edən:** **Elçin Əhmədov**
**professor, siyasi elmlər doktoru**

**Rəyçilər:** **Elman Nəsirov**
**professor, siyasi elmlər doktoru**

**Hikmət Məmmədov**
**professor, siyasi elmlər doktoru**

**Elçin Əhmədov.** Beynəlxalq təşkilatlar fənnin proqramı.
Bakı, "Zərdabi LTD" MMC, 2018.- 120 s.

Proqram ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya və digər humanitar ixtisaslar üzrə bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

© E.İ.Əhmədov, 2018

## I HİSSƏ
## TƏŞKİLATI-METODİKİ BÖLMƏ
## İZAHAT VƏRƏQİ

Müasir dünya siyasəti və dövlətlərarası münasibətlər sistemində beynəlxalq və regional təşkilatlar həm dövlətlər arasında ikitərəfli əməkdaşlıqda, həm də çoxtərəfli diplomatiyada mühüm rol oynayırlar. Beynəlxalq təşkilatlara üzv olan dövlətlərin bir çoxu məhz bu təşkilatlar vasitəsilə ikitərəfli və çoxtərəfli əlaqələr qururlar. Beynəlxalq təşkilatlar suveren dövlət birlikləridir. Hazırda dövlətlərarası əməkdaşlığın müxtəlif formaları yaradılmışdır ki, belə əməkdaşlığın bir forması da beynəlxalq təşkilatlar vasitəsilə həyata keçirilir.

XIX əsrin II yarısnda bir sıra ictimai hərəkatlar və təşkilatlar yarandıqdan sonra XX əsrdə bu proses sürətlənərək daha da inkişaf etmişdir. Beynəlxalq hüququn subyektlərindən olan beynəlxalq təşkilatların səlahiyyətlərinin genişlənməsi, quruluşunun və fəaliyyət istiqamətlərinin dəyişməsi müasir beynəlxalq münasibətlər sisteminin səciyyəvi xüsusiyyətlərindəndir.

Siyasi, iqtisadi, mədəni, sosial və digər sahələrdə dövlətlərarası münasibətlərin inkişaf etməsi bir sıra müxtəlif yönümlü dövlətarası beynəlxalq təşkilatların yaranması və onların sayının getdikcə daha da artmasına gətirib çıxaran amillərdəndir. Hazırda dünyada 300-dən çox dövlətlərarası təşkilatlar fəaliyyət göstərir. Bu təşkilatlar arasında əlaqələrin qurulması, inkişafı və əməkdaşlığın genişlənməsi artıq dünyada beynəlxalq təşkilatlar sisteminin yaranmasına gətirib çıxarmışdır.

Beynəlxalq təşkilatlar üzv dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin qorunmasına müstəqilliyinin möhkəmləndirilməsinə yardım etməklə yanaşı, dövlətlər arasında ikitərəfli və çoxtərəfli siyasi, iqtisadi, ticarət, elmi-texniki, mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayırlar. Bununla yanaşı, dünyada baş verən müxtəlif xarakterli münaqişələrin nizama salınması üçün beynəlxalq təşkilatların konkret mexanizmləri vardır. Onlar adətən həmin mexanizmlərdən istifadə edərək mübahisə və böhranların genişmiqyaslı münaqişəyə çevrilməsinin qarşısını alırlar.



XX əsrin 90-cı illərinin əvvəlləri dünyanın ictimai-siyasi həyatında yeni dövrün başlanması ilə xarakterizə olunur. SSRİ və sosializm düşərgəsinin dağılması nəticəsində dünyada, xüsusilə Avropa qitəsində əsaslı dəyişikliklər baş verdi. Bu isə beynəlxalq münasibətlərin nizama salınmasına yeni kontekstindən baxmağı zəruri edirdi. Köhnə beynəlxalq münasibətlər sisteminin süqutu ilə yanaşı, yeni dünya düzəninin əsası qoyulmağa başladı. Bu baxımdan beynəlxalq münasibətlərin əsas güc mərkəzləri yeni geosiyasi reallıqlardan çıxış edərək öz fəaliyyətlərini mövcud şəraitə uyğunlaşdırmağı qərara aldılar. Ancaq soyuq müharibə dövrü başa çatsa da, Avropada regional sabitliyə böyük təhlükə hələ də qalmaqda idi. Milli zəmində münaqişələrin kəskinləşməsi dünyada, xüsusilə Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi rolunu oynayan beynəlxalq təşkilatlar daxilində struktur dəyişikliklərin edilməsi zərurətini yaradırdı. Yaranmış vəziyyətə uyğun olaraq bir sıra beynəlxalq təşkilatlar, xüsusilə ATƏT, Avropa Şurası, Avropa Birliyi və NATO kimi qurumlar öz fəaliyyətlərini yeni istiqamətdə inkişaf etdirməyə başladılar.

Müstəqillik əldə etdikdən sonra digər suveren dövlətlər kimi Azərbaycan Respublikası da, beynəlxalq və regional təşkilatların üzvü oldu və onlarla əməkdaşlıq etməyə başladı. Azərbaycanın Avropa təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiyası, eyni zamanda dövlət quruculuğu prosesində üzləşdiyi problemlə-

rin həll edilməsində, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması istiqamətində beynəlxalq təşkilatların siyasi və iqtisadi potensialından istifadə etməyə cəhd göstərir. Bununla yanaşı, Azərbaycan özünün hərbi və siyasi təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi səviyyəsinə çıxararaq regionda sülhün təmin olunmasına onların təsir etməsini sürətləndirməyə çalışır. Məhz Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq təşkilatlarda təmsil olunması, eyni zamanda beynəlxalq təşkilatların dünya siyasətində və dövlətlərarası münasibətlərdə rolunun artması, onların məqsəd və vəzifələri, səlahiyyətləri, quruluşu və fəaliyyət istiqamətlərinin tədqiq olunmasını çox zəruri edirdi. Bununla yanaşı, beynəlxalq təşkilatların fəaliyyət istiqamətlərinin daha dərindən öyrənilməsi mühüm elmi-siyasi, həm də praktik əhəmiyyət daşıyır.

Müstəqillik dövründən başlayaraq artıq 25 ildən çoxdur ki, "Beynəlxalq təşkilatlar" ayrıca bir fənn kimi respublikamızın ali məktəblərində bakalavr pilləsinin tələbələrinə tədris olunur. Bu baxımdan beynəlxalq təşkilatların sistemli şəkildə tədris olunmasını və fənlə bağlı yığcam halda dərsliklərin və dərs vəsaitlərinin azlığını nəzərə alaraq "Beynəlxalq təşkilatlar" fənni üzrə proqramın hazırlanmasını vacib hesab etdik.

Proqram ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya və digər humanitar ixtisaslar üzrə bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu proqram Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq münasibətlər" ixtisası üzrə bakalavr pilləsində tədris edilən ixtisas kursunun proqramına müvafiq olaraq hazırlanmışdır. Proqramda "Beynəlxalq təşkilatlar" ixtisas kursunun predmeti, məqsəd və vəzifə-



ləri açıqlanır. Bununla yanaşı, beynəlxalq təşkilatların öyrənilməsinin əhəmiyyəti göstərilməklə onların fəaliyyət obyektlərinə və coğrafi fəaliyyət hüdudlarına görə təsnifatı proqramda öz əksini tapmışdır.

Eyni zamanda, beynəlxalq təşkilatların hər birinin yaradılmasını şərtləndirən amillər, ideya və nəzəriyyələr açıqlanır. Beynəlxalq təşkilatların səciyyəvi xüsusiyyətləri, ilk növbədə təşkilatın təsis edilməsi haqqında hüquqi baza (nizamnamə, xartiya, müqavilə), məqsəd, funksiya, səlahiyyətləri və quruluşu göstərilməklə yanaşı, əsas orqanları və onların fəaliyyət istiqamətləri də xarakterizə olunur. Proqramda beynəlxalq təşkilatların dünya siyasətində və beynəlxalq münasibətlər sistemində yeri və roluna nəzər salınmışdır. Bundan əlavə, beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlığına diqqət yetirilmişdir. Proqramın sonunda kursun öyrənilməsində tövsiyə edilən Azərbaycanda, eləcə də xaricdə nəşr olunmuş mənbə və ədəbiyyatların siyahısı verilmişdir.

"Beynəlxalq təşkilatlar" fənni, humanitar elmlər sırasına daxil olmaqla siyasi elmlərinin ümumnəzəri, o cümlədən sahə fənnləri ilə qarşılıqlı əlaqəlidir. "Beynəlxalq təşkilatlar" fənni üzrə proqram Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 08 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr səviyyəsi üzrə ixtisasların (proqramların) siyahısı"nın "Humanitar və sosial ixtisaslar qrupu"na daxil olan "050213 – Beynəlxalq münasibətlər" ixtisası üçün tərtib edilmişdir. Proqram Təhsil haqqında Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın tələblərinə, AR NK-nin "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında

2010-cu il 23 aprel tarixli 75 №-li, “Ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları”nın təsdiq edilməsi haqqında 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarlarına, bakalavr səviyyəsinin 050213 – “Beynəlxalq münasibətlər” ixtisası üzrə Təhsil Proqramına, Avropa Kredit Transfer Sisteminə və digər müvafiq normativ sənədlərlə müəyyən edilmiş minimum tələblərə uyğun olaraq tərtib edilmişdir.

İPF-B11 “Beynəlxalq təşkilatlar” fənni 050213 – “Beynəlxalq münasibətlər” ixtisası üzrə bakalavr hazırlığını təmin edən təhsil proqramının strukturuna seçmə fənni kimi daxil olunmuş və fənnin qısa məzmununda nəzərdə tutulmuş məsələləri özündə geniş şəkildə ehtiva etmişdir. Fənnin tədrisi üçün 45 saat o cümlədən, 30 saatı mühazirə, 15 saat seminar nəzərdə tutulmuşdur.



## II HİSSƏ
## MÖVZULARIN TEMATİK PLANI “BEYNƏLXALQ TƏŞKİLATLAR” FƏNNİ ÜZRƏ SAAT BÖLGÜSÜ

| № | Mövzular | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| Mövzu 1 | GİRİŞ. "Beynəlxalq təşkilatlar" kursunun predmeti, məqsəd və vəzifələri | 2 | |
| Mövzu 2 | Birləşmiş Millətlər Təşkilatının yaradılması, məqsəd və vəzifələri. BMT sisteminin təsnifatı və strukturu. | 2 | 2 |
| Mövzu 3 | BMT-nin əsas və köməkçi orqanları | 2 | 2 |
| Mövzu 4 | BMT-nin ixtisaslaşmış qurumları və onların fəaliyyəti | 2 | |
| Mövzu 5 | BMT-nın ixtisaslaşmış qurumlarına daxil olmayan BMT Proqramları və İnstitutları | 2 | |
| Mövzu 6 | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) | 2 | 2 |
| Mövzu 7 | Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO | 2 | 2 |
| Mövzu 8 | Avropa Şurası | 2 | 2 |
| Mövzu 9 | Avropa İttifaqı | 2 | 2 |
| Mövzu 10 | Avropa İqtisadi Təşkilatları | 2 | |
| Mövzu 11 | Avropa Regional Təşkilatları | 2 | |
| Mövzu 12 | Avropa Elmi-Tədqiqat Təşkilatları (İnstitutları) | 2 | |
| Mövzu 13 | İslam Əməkdaşlıq Təşkilatı | 2 | 2 |
| Mövzu 14 | Asiya, Afrika, Amerika və Avstraliya qitəsi dövlətlərinin siyasi-iqtisadi təşkilatları | 2 | |
| Mövzu 15 | Müstəqil Dövlətlər Birliyi və GUAM | 2 | 1 |
| CƏMİ: | 45 saat | 30 | 15 |

## III HİSSƏ
## MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

Müasir dövrdə beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr üçün "Beynəlxalq təşkilatlar" fənninin nəzəri əhəmiyyəti çox böyükdür. Müasir dünya siyasəti və dövlətlərarası münasibətlər sistemində beynəlxalq və regional təşkilatlar həm dövlətlər arasında ikitərəfli əməkdaşlıqda, həm də çoxtərəfli diplomatiyada mühüm rol oynayırlar. "Beynəlxalq təşkilatlar" fənninin predmetini, Beynəlxalq təşkilatlara üzv olan dövlətlərin bir çoxu məhz bu təşkilatlar vasitəsilə ikitərəfli və çoxtərəfli əlaqələr qururlar. Beynəlxalq təşkilatlar suveren dövlət birlikləridir. Hazırda dövlətlərarası əməkdaşlığın müxtəlif formaları yaradılmışdır ki, belə əməkdaşlığın bir forması da beynəlxalq təşkilatlar vasitəsilə həyata keçirilir. Bu baxımdan digər elm sahələri kimi, müasir dövrdə beynəlxalq münasibətlər sisteminin formalaşmasında bu fənnin əvəzsiz nəzəri və praktiki rolu vardır.

Tələbə, nəzəri-praktiki fənn kimi "Beynəlxalq təşkilatlar" fənninin dərin mənimsəməlidir:

– beynəlxalq təşkilatların hər birinin yaradılmasını şərtləndirən amillər, ideya və nəzəriyyələrini;

– beynəlxalq təşkilatların səciyyəvi xüsusiyyətləri, ilk növbədə təşkilatın təsis edilməsi haqqında hüquqi baza (nizamnamə, xartiya, müqavilə), məqsəd, funksiya, səlahiyyətlərini;

– beynəlxalq təşkilatların və quruluşu göstərilməklə yanaşı, əsas orqanları və onların fəaliyyət istiqamətlərini;

– beynəlxalq təşkilatların onların fəaliyyət istiqamətlərini;

– beynəlxalq təşkilatların dünya siyasətinə və beynəlxalq münasibətlər sistemində yeri və rolunu.

**Fənn üzrə ümumi balların verilməsi qaydası.** Tələbə fənn



üzrə maksimum 100 bal toplaya bilər ki, bu balların yarısı, yəni 50 balı onun semestr ərzindəki fəaliyyətinə, digər yarısı – 50 balı isə imtahanın nəticələrinə görə toplanır. Balların maksimum miqdarı üzrə bölgü aşağıdakı kimi müəyyənləşdirilir:

1) 10 bal dərslərə davamiyyətinə görə;

2) 10 bal müəllimin rəhbərliyi ilə bakalavrların sərbəst işinə görə;

3) 30 bal semestr ərzində üç dəfədən az olmayaraq, cari qiymətləndirmə üzrə seminar dərslərinin və semestr ərzində üç dəfə (əyani şöbə üzrə semestrin hər beşinci həftəsi) keçirilən kollokviumun nəticələrinə görə;

4) 10 bal referatın və ya kurs işinin hazırlanmasına və müdafiəsinə görə;

**Qeyd:** Fənn üzrə referat və ya kurs işi nəzərdə tutulmadığı halda ona ayrılan 10 bal seminar dərslərinə əlavə olunur.

5) 50 bal imtahanın nəticəsinə görə.

Semestrin nəticələrinə görə bakalavr aldığı yekun bal imtahan balı ilə toplanır və yekun nəticə maksimum 100 bala bərabərdir.

"Beynəlxalq təşkilatlar" fənni üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə bakalavrın biliyi, Avropa Kredit Transfer Sisteminə (AKTS) görə aşağıda qeyd olunan cədvələ müvafiq olaraq qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı | qeyri-kafi | F |
| 51-60 bal | qənaətbəxş | E |
| 61-70 | Kafi | D |
| 71-80 | Yaxşı | C |
| 81-90 | çox yaxşı | B |
| 91-100 | əla | A |

## Mövzu 1. "BEYNƏLXALQ TƏŞKİLATLAR" KURSUNUN PREDMETİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ - 2 saat

"Beynəlxalq təşkilatlar" anlayışı və onların mahiyyəti. Beynəlxalq təşkilatların təsnifatı. Beynəlxalq dövlətlərarası (hökumətlərarası) təşkilatlar və onların səciyyəvi xüsusiyyətləri. Beynəlxalq təşkilatların fəaliyyət obyektlərinə görə təsnifatı: siyasi, hərbi, iqtisadi, ictimai, humanitar, texniki, elmi, mədəni və s. təşkilatlar. Coğrafi fəaliyyət hüdudlarına görə beynəlxalq təşkilatların təsnifatı: universal və regional təşkilatlar.

Beynəlxalq təşkilatların səciyyəvi xüsusiyyətləri:

- Təsis haqqında hüquqi baza (nizamnamə, xartiya, müqavilə);
- Məqsəd, prinsip, səlahiyyət və quruluşunun müqavilə əsası;
- Daimi orqanların mövcudluğu;
- Üzv dövlətlərin suverenliyinə hörmət.

Beynəlxalq təşkilatlara üzvlüyün xarakterik cəhəti: ümumi məqsəd və mənafelər birliyi. Dövlətlər arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsində beynəlxalq təşkilatların rolu. Mübahisə və böhranların genişmiqyaslı münaqişəyə çevrilməməsi və münaqişələrin nizama salınması prosesində beynəlxalq təşkilatların fəaliyyəti.

Dövlətlərin müxtəlif beynəlxalq təşkilatlarda birləşməsi üçün irəli sürülən ideya və nəzəriyyələr. XIX əsrdə ilk beynəlxalq təşkilatların yaranması və onların fəaliyyətinin əlaqələndirməsi.

I dünya müharibəsindən sonra beynəlxalq təşkilatların fəaliyyətində dəyişikliklər. Dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi yolunda atılan ilk addımlar. ABŞ prezidenti V. Vilsonun dünya birliyi ideyası və onun mahiyyəti.

İlk universal beynəlxalq təşkilat olan Millətlər Cəmiyyətinin yaradılması. Cəmiyyətin quruluşu və fəaliyyət mexanizmləri.



Əsas və köməkçi orqanları. Cəmiyyətin Nizamnaməsindən irəli gələn məqsəd, vəzifə və prinsiplər. Onun fəaliyyətinin əsas istiqamətləri. Millətlər Cəmiyyətinin II dünya müharibəsi ərəfəsində süqutu və onun səbəbləri.

## Mövzu 2. BMT-nin YARADILMASI. TƏŞKİLATIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ - 2 saat

II Dünya müharibəsinin başlaması və yeni beynəlxalq kollektiv təhlükəsizlik orqanının yaradılması ideyası. Atlantik xartiyası (1941, 14 avqust) və onun mahiyyəti. SSRİ-nin xartiyaya qoşulması və London konfransı (sentyabr, 1941 il).

Antihitler koalisiyasının yaradılması. Vaşinqton konfransı (01 yanvar, 1942) "OX" ölkələrinə qarşı birgə mübarizə. Birləşmiş Millətlərin Bəyannaməsinin imzalanması və onun mahiyyəti.

Dörd dövlətin (ABŞ, SSRİ, Birləşmiş Krallıq, Çin) nümayəndələrinin Moskva konfransı (19-30 oktyabr, 1943). "Ümumi təhlükəsizlik təşkilatının yaradılması haqqında" bəyannamə. Tehran konfransı (01 dekabr, 1943). Dumbarton-Oks konfransı (avqustun 21-dən oktyabrın 7-dək, 1944). "Yalta formulası" və onun mahiyyəti. Təhlükəsizlik Şurasında səsvermə sistemi və onun mahiyyəti. Krım konfransı (04-11 fevral, 1945).

San-Fransisko konfransı (21 aprel-26 iyun, 1945) və onun qərarları. Birləşmiş millətlər Təşkilatı Nizamnaməsinin hazırlanması və təsdiqi. BMT-nin yaradılması (24 oktyabr, 1945). Təşkilatın məqsəd və vəzifələri.

BMT-nin Nizamnaməsi: beynəlxalq təhlükəsizlik və sülhün qorunması ilə bağlı müddəalar. BMT-nin sülh, tərksilah və sürətlə silahlanmanın qarşısını almaq uğrunda mübarizəsi. Nüvə müharibəsi təhlükəsi reallığı. BMT-nin nüvə silahı sınaqlarının dayandı-

rılması, nüvə silahlarının yayılması, nüvəsiz zonaların yaradılması və nüvə müharibəsinin qarşısının alınması uğrunda mübarizəsi. Nüvə silahı sınaqlarının üç sahədə qadağan olunması haqqında (1963) və nüvə silahının yaradılması (1970) haqqında müqavilələrin imzalanması. BMT-nin müstəmləkə sisteminin ləğv olunması uğrunda mübarizəsi.

BMT-nin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu: baxış və nəzəriyyələr. BMT-də struktur dəyişikliklər: mövcud vəziyyəti və perspektivləri. BMT-nin fəaliyyətinin başlıca istiqamətləri.

BMT və İnsan huquqlarının qorunması problemi. BMT-nin müstəmləkə sisteminin ləğvi uğrunda mübarizəsi. Müstəmləkəçiliyin ləğvi haqqında 14 dekabr 1960-cı il Bəyannaməsi və onun beynəlxalq nəticələri.

BMT-nin digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı. BMT-nin dünya dövlətləri ilə əməkdaşlığı.

**Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığı.** Azərbaycanın BMT-yə üzv qəbul olunması (02 mart, 1992 ). Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin yaradılması (06 mart, 1992) və fəaliyyəti. BMT Baş Katibinin xüsusi nümayəndəsi Sayrus Vensin başçılıq etdiyi nümayəndə heyətinin münaqişə bölgələrinə səfəri (mart, 1992) və onun nəticələri.

Ermənistanın silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğalı ilə əlaqədar Azərbaycanın BMT TŞ sədrinə müraciəti (09 may, 1992). BMT Təhlükəsizlik Şurasının 3072-ci iclası (12 may, 1992) və Şura sədrinin Dağlıq Qarabağdakı vəziyyətə dair bəyanatı. Təhlükəsizlik Şurası sədrinin növbəti bəyanatları (20 avqust, 1992; 27 oktyabr, 1992) və onların mahiyyəti.

Kəlbəcər rayonunun işğalı ilə əlaqədar Azərbaycanın BMT Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciəti. BMT



Təhlükəsizlik Şurasının 3194-cü iclası və Şura sədrinin Kəlbəcər işğalı ilə əlaqədar bəyanatı (06 aprel, 1993).

BMT Təhlükəsizlik Şurasının 3205-ci iclası və Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul edilən 822 saylı qətnamə (30 aprel, 1993). Qətnamənin müsbət və mənfi cəhətləri. Təhlükəsizlik Şurasının daimi üzvləri olan böyük dövlətlərin mövqeyi.

Ermənistanın silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalı ilə əlaqədar Azərbaycanın BMT Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciəti. BMT Təhlükəsizlik Şurasının 3259-cu iclası və qəbul edilən 853 saylı qətnamə (29 iyul, 1993). Qətnamənin müsbət və mənfi cəhətləri.

Azərbaycanın Füzuli rayonunun işğalı ilə əlaqədar BMT TŞ sədrinin bəyanatı (18 avqust, 1993) və onun mahiyyəti. Ermənistanın silahlı qüvvələri tərəfindən Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar Azərbaycanın BMT Baş Katibi və Təhlükəsizlik Şurasının sədrinə müraciəti. BMT Təhlükəsizlik Şurasının 3292-ci iclası və 874 saylı qətnamənin qəbul edilməsi (14 oktyabr, 1993). Qətnamənin mahiyyəti. Böyük dövlətlərin mövqeyi.

Ermənistanın silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə bağlı Azərbaycan dövlətinin BMT Baş Katibi və Təhlükəsizlik Şurasının sədrinə müraciəti. BMT Təhlükəsizlik Şurasının 3313-cü iclası və 884 saylı qətnamənin qəbul edilməsi (11 noyabr, 1993). Qətnamənin mahiyyəti. BMT TŞ-nin qəbul etdiyi 4 qətnamənin yerinə yetirilməsinin səbəbləri.

Azərbaycan ilə BMT arasındakı əməkdaşlıqda yeni mərhələ (1993-cü ildən sonrakı dövr); BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycana səfəri; BMT xətti ilə keçirilən bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı; Azərbaycan Prezidenti Heydər Əliyevin BMT rəhbərliyi ilə keçirdiyi görüşləri (1993-2001-ci illər); Qahirədə

"Əhali məskunluğu və inkişafı" üzrə konfrans və Azərbaycanın burada iştirakı (sentyabr, 1994). Azərbaycan Prezidenti Heydər Əliyevin BMT Baş Katibi Butros Qali ilə görüşü. Heydər Əliyevin BMT-nin 50 illiyi münasibəti ilə Nyu-Yorkda keçirilən tədbirlərdə iştirakı; Azərbaycanın BMT ilə siyasi, iqtisadi, elmi-texniki və mədəni sahələrdəki əməkdaşlığı; BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqə; BMT vasitəsi ilə Azərbaycan qaçqınlarına göstərilən humanitar yardım; Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğuna BMT-nin yardımı; BMT-nin Minillik Sammitində Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı. BMT Baş Məclisinin 58-ci sessiyasında Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin çıxışı (24 sentyabr, 2003).

Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığı. Azərbaycanın 2003-2005-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına (EKOSOS) üzv seçilməsi (2003). BMT Baş Məclisinin 60-cı və 62-ci sessiyalarında (2006-cı və 2008-ci illər) "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrin qəbul edilməsi; Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə qələbə qazanması (24 oktyabr 2011-ci il); BMT-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyəti.

Azərbaycan Respublikasının BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2017-2019-cu illərdə üzvlüyünə seçilməsi; Azərbaycan və Beynəlxalq Qırmızı Xaç Komitəsi əlaqələri; Azərbaycan Respublikası və BMT-nin Avropa üzrə İqtisadi Komis-siyası əlaqələri; Azərbaycan Respublikası və Ümumdünya Ticarət Təşkilatı; BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramı və Azərbaycan; Azərbaycan Respublikası və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı; Azərbaycan Respublikası və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı; Azərbaycan Respublikası və Beynəlxalq



Telekommunikasiya İttifaqı; Azərbaycan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı; Azərbaycan Respublikası və Beynəlxalq Əmək Təşkilatı; Azərbaycan Respublikası və Ümum-dünya Meteorologiya Təşkilatı; Azərbaycan Respublikası və Beynəlxalq Miqrasiya Təşkilatı.

## Mövzu 3. BMT SİSTEMİNİN TƏSNİFATI VƏ STRUKTURU. BMT-nin ƏSAS VƏ KÖMƏKÇİ ORQANLARI - 2 saat

### 3.1. BMT Baş Məclisi

Tərkibi, funksiya və səlahiyyətləri. İş prinsipi. Daimi və müvəqqəti komitələr. BMT Baş məclisinin sessiyaları. Sessiyaların iş prinsipi. Səsvermə qaydası. Baş Məclisin sədri və onun müavinləri. Onların səlahiyyətləri. Baş məclisin qəbul etdiyi sənədlər və onların işləmə mexanizmi. BMT Baş məclisinin rəsmi və işçi dilləri.

### 3.2. BMT Təhlükəsizlik Şurası

Şuranın daimi və müvəqqəti üzvləri. Müvəqqəti üzvlərin seçilməsi qaydası. Təhlükəsizlik Şurasının səlahiyyətləri. Səsvermə qaydası . Veto hüququ.

Təhlükəsizlik Şurasının köməkçi orqanları. Daimi və xüsusi Komitələr. Təhlükəsizlik Şurasının qəbul etdiyi sənədlər və onların işləmə mexanizmi. Təhlükəsizlik Şurasının iclaslarının çağırılması prosedurası. BMT Nizamnaməsinin 33, 34, 35, 42, 52-ci maddələri və Şuranın hüquqları.

### 3.3. İqtisadi və Sosial Şura /EKOSOS/

Quruluşu və tərkibi. Üzvlərin seçilməsi qaydası və fəaliyyət prinsipləri, məqsədi və vəzifələri. EKOSOS-un yaradılması, sessiyaları və burada səsvermə qaydası. EKOSOS-un daimi funksio-

nal və məhəlli iqtisadi komissiyaları. EKOSOS-un daimi komitə, orqan və təsisatları.

### 3.4. Qəyyumluq Şurası

Tərkibinin müəyyənləşdirilməsi prinsipi. Funksiya və səlahiyyətləri. Fəaliyyət sahələri, sessiyaları, səsvermə qaydası. Üzvlər və onların səlahiyyət müddəti. Qəyyumluq Şurasının fəaliyyətini başa çatdırması (1994).

### 3.5. Beynəlxalq Məhkəmə

Tərkibi. Funksiyaları, məqsəd və vəzifələri. Məhkəmənin üzvləri, onların seçilməsi. Məhkəmənin statusu. Məhkəmənin aparılması mərhələləri. Nizamnamənin 95 və 96-cı maddələri. İclasları və qərarların qəbulu qaydası. Məhkəmənin səlahiyyətləri, məhkəmə prosesi, işçi dilləri (ingilis və alman). İqamətgahı (Haaqa).

### 3.6. Katiblik

Katiblik əsas inzibati orqan kimi. Katibliyin tərkibi və fəaliyyəti. Katibliyin quruluşu, idarə, departament və şöbələri.Katibliyin personalı. BMT-nin Baş Katibi. Seçilməsi, səlahiyyətləri, fəaliyyət sahələri. BMT-nin rəsmi dilləri (ingilis, fransız, ispan, ərəb, çin və rus), büdcəsi və iqamətgahı (Nyu-York).

## Mövzu 4. BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARI - 6 saat

Qurumların yaradılması, ona dair baxış və nəzəriyyələr. Qurumların fəaliyyət sahələrinə görə təsnifatı, funksiyaları. Fəaliyyət prinsipləri, səciyyəvi cəhətləri, spesifik xüsusiyyətləri və onları şərtləndirən amillər. İxtisaslaşmış qurumlar beynəlxalq hüququn müstəqil subyekti kimi. İxtisaslaşmış qurumların idarəetmə



mexanizmi, fəaliyyətlərinin hüquqi təbiəti və idarəetmə mexanizmi. İxtisalaşmış qurumların BMT strukturları ilə əlaqələri və müasir dünya proseslərində iştirakı.BMT-nin kənd təsərrüfatı xarakterli ixtisaslaşdırılmış qurumlarının səciyyəsi.

### 4.1. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (BƏKTT; FAO; ФАО)

Kvebek (Kanada) konfransı və təşkilatın yaradılması (16 oktyabr, 1945). Məqsəd və vəzifələri. Təşkilatın quruluşu:

- **Konfrans** - təşkilatın ali orqanı kimi. Konfransların keçirilməsi, vəzifə və səlahiyyətləri. Konfransın komissiyaları və onların fəaliyyət istiqamətləri;
- **Şura,** onun üzvləri, vəzifə və səlahiyyətləri. Komitələri və onların fəaliyyət departamentləri;
- **Regional büro və şöbələri,** onların fəaliyyət sahələri;
- **Baş direktor,** onun vəzifə və səlahiyyətləri;
- **Katiblik,** onun funksiya və səlahiyyətləri.

Təşkilatın maliyyə mənbələri. Fəaliyyət prinsipləri. Həyata keçirdiyi layihələr. BMT Baş Məclisinin XV sessiyasında 1946 saylı "ümumdünya aclıqla mübarizə proqramı" adlandırılan sənədin qəbul olunması (1960) və onun mahiyyəti. Təşkilatın "xüsusi ərzaq təhlükəsizliyi proqramı". Romada keçirilən Ümumdünya görüşündə dünya ərzaq təhlükəsizliyinə dair Bəyannamə və Fəaliyyət Planı. Təşkilatın üzvləri (186). Qərargah mənzili (Roma).

Azərbaycan Respublikasının BƏKT ilə əməkdaşlığı.

### 4.2. Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu (BKİF: İFAD; МФСР)

XX yüzilliyin 70-ci illərində dünyada sosial-iqtisadi vəziyyət və yeni bir ixtisaslaşmış qurumun yaradılmasını şərtləndirən amillər. Ümumdünya Ərzaq Konfransı (1974). BKİF-ın yaradıl-

ması (1976). Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın quruluşu:

- **Müdirlər Şurası** - təşkilatın ali orqanı kimi. Onun üzvləri, sessiyaları və səlahiyyətləri;
- **İcraiyyə Şurası** - təşkilatın icra orqanı kimi. Üzvləri, onların səlahiyyət müddəti və vəzifələri;
- **Prezident** - təşkilatın rəhbəri kimi. Onun səlahiyyətləri. Vitse-prezident və onun vəzifələri;
- **Katiblik,** onun departamentləri, vəzifə və səlahiyyətləri.

Təşkilatın maliyyə mənbələri. Kreditlər və onların verilməsi şərtləri. Təşkilatın həyata keçirdiyi layihələr. BKİF-in dünyada aclıqla mübarizəyə qarşı fəaliyyət proqramları.Təşkilatın üzvləri (157) və onların kateqoriyalara bölünməsi. Qərargah mənzili (Roma).

Azərbaycan Respublikasının BKİF ilə əməkdaşlığı.

### 4.3. Beynəlxalq Valyuta Fondunun yaradılması (BVF; IMF; МВФ)

Bretton -Vuds (ABŞ) iqtisadi konfransı (1944) və beynəlxalq valyuta orqanının yaradılması. Valyuta siyasəti sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi və genişlənməsi. Fondun məqsəd, vəzifə və funksiyaları. Təşkilatın strukturu:

- **Müdirlər Şurası** – fondun ali orqanı kimi. Üzvləri. Toplantıları. Vəzifə və səlahiyyətləri. Müvəqqəti komitə, onun üzvləri və funksiyaları. İcraçı direktorlar və onların seçilməsi prinsipi;
- **İnkişaf Komitəsi,** onun məqsəd və vəzifələri;
- **İcraiyyə Şurası,** onun üzvləri və səlahiyyətləri;
- **Bölüşdürücü direktor,** onun vəzifələri və fəaliyyəti;
- **BVF-nin Statistika Komitəsi**, onun üzvləri və fəaliyyət istiqamətləri.

BVF-nin texniki yardım proqramlarının hazırlanması və reallaşdırılması. Onu həyata keçirən orqanlar. BVF-ə üzvlük qaydaları və üstün kvotaya malik dövlətlər. Təşkilatın sabit valyuta siyasəti, beynəlxalq iqtisadi layihələrin maliyyələşdirilməsi və fondun digər fəaliyyət sahələri. Fondun məcmuəsi. Fondun üzvləri (181). Qərargah mənzili (Vaşinqton).

Azərbaycan Respublikasının BVF ilə əməkdaşlığı.

### 4.4. Ümumdünya Bankı Qrupu

Ona daxil olan qurumların səciyyəvi xüsusiyyətləri. Məqsədləri, funksiyaları və fəaliyyət mexanizmi. Təşkilatın quruluşu:

- **Müdirlər Şurası** – təşkilatın ali orqanı kimi. Onun üzvləri və səlahiyyətləri;
- **İcraçı Direktorlar Şurası** və onun vəzifələri. Şuraya sədrlik. Prezident və onun vəzifələri.

Ümumdünya Bankı Qrupunun illik mətbu orqanı. Bankın üzvləri (119). Qərargah mənzili (Vaşinqton).

#### 4.4.1. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB; İBRD; МБРР)

Təşkilatın yaradılması (1944). Məqsəd və vəzifələri. Bankın quruluşu: Qurumun dünya kapital bazarı ilə əlaqələri, öhdəçilik və kreditləri. BYİB-nin BVF ilə əlaqələri. BYİB-nın maliyyə mənbələri. Bankın əsas fəaliyyət istiqamətləri. Təşkilatın regional şöbələri və informasiya mərkəzləri (Vaşinqton, London, Paris, Tokio). Qərargah mənzili.(Vaşinqton).

Azərbaycan Respublikasının BYİB ilə əməkdaşlığı.

#### 4.4.2. Beynəlxalq Maliyyə Korporasiyası (BMK; IFC; МФК)

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının İstanbul sammiti. Təşkilatın yaradılması (iyun, 1955). Məqsəd və vəzifələri.

Quruluşu: Təşkilatın investisiya siyasəti. Xarici investisiyaların istiqamətləndirilməsinə dair 1986-cı il qərarı və onun beynəlxalq nəticələri. BMK-nın regional nümayəndəlikləri. Təşkilatın əsas fəaliyyət istiqamətləri. Qərargah mənzili (Vaşinqton).

Azərbaycan Respublikasının BMK ilə əməkdaşlığı.

### 4.4.3. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA; IDA; MAP)

"Afrika ili" və dünyanın siyasi xəritəsində yeni istiqlaliyyət qazanmış dövlətlər (1960). Təşkilatın yaradılması zərurəti. BİA-nın strukturu: rəhbər və icra orqanları. Təşkilatın kredit siyasəti və onun nəticələri. BİA-nın iqtisadi istiqamətli layihələri. Təşkilatın əsas fəaliyyət istiqamətləri. Beynəlxalq İnkişaf Assosiasiyasının maliyyə mənbələri. Təşkilata üzvlük prinsipləri. Təşkilatın qərargah mənzili (Vaşinqton).

Azərbaycan Respublikasının BİA ilə əməkdaşlığı.

### 4.4.4. İnvestisiya Təminatları üzrə Çoxtərəfli agentlik (İTÇA; MIGA; МАИГ)

Təşkilatın yaradılması (1988). Məqsəd və vəzifələri. İTÇA-nın strukturu və fəaliyyət mexanizmləri. Təşkilatın inkişaf etməkdə olan ölkələrə maliyyə yardımlarının istiqamətləndirilməsi. Təşkilatın əsas fəaliyyət istiqamətləri və təminat sahələri. Qərargah mənzili.(Vaşinqton).

Azərbaycan Respublikasının İTÇA ilə əməkdaşlığı.

### 4.5. BMT-nin Sənaye və İnkişaf Təşkilatı (YUNİDO; UNIDO; ЮНИДО)

Təşkilatın yaradılması (17 noyabr, 1966). YUNİDO-nun məqsəd və vəzifələri. BMT ilə YUNİDO arasında imzalanan saziş (17 dekabr, 1985) və təşkilatın ixtisaslaşmış quruma çevrilməsi. Təşkilatın orqanları:



- **Baş konfrans.** Onun keçirilməsi, üzvləri və vəzifələri;
- **Sənaye İnkişafı üzrə Şura**, onun vəzifələri və fəaliyyəti. Üzvləri, onların səlahiyyət müddəti və seçilməsi prinsipi;
- **Baş direktor.** Vəzifələri və səlahiyyət müddəti;
- **Katiblik.** Direktorlar və onların sahələr üzrə şöbələri;
- **Layihənin əlaqələndirilməsini həyata keçirən Nyu-York və Cenevrə şöbələri** və onların fəaliyyəti.

Təşkilatın köməkçi orqanları: Proqram və büdcə komitəsi, onun üzvlərinin seçilməsi prinsipi. Komitənin vəzifələri və fəaliyyəti. İxtisaslaşmış köməkçi komitələr və onların vəzifələri. YUNİDO-nun maliyyə mənbələri. Təşkilatın regional büroları və onların fəaliyyət sahələri.

YUNİDO-nun beynəlxalq sənaye əməkdaşlığı mərkəzləri və bürolarının xarakteristikası. Təşkilatın fəaliyyət istiqamətlərinin səciyyəsi. YUNİDO-nun Afrika qitəsinin sənaye inkişafına dair onillik planları. Asiya-Sakit okean regionunun sənaye inkişafına dair təşkilatın layihə və proqramları. Təşkilatın üzvləri (166). İqamətgahı (Vyana).

Azərbaycan Respublikasının YUNİDO ilə əməkdaşlığı. Təşkilatın Sumqayıt sənaye inkişafı proqramı.

### 4.6. Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT; WMO; BMO)

Cenevrə Konvensiyası (1878) və atmosfer proseslərinin öyrənilməsi mərkəzinin yaradılması. Təşkilatın BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi (23 mart, 1950). ÜMT-nin məqsəd və vəzifələri. Təşkilatın orqanları:

- **Ümumdünya Metereologiya Konqresi** - təşkilatın ali orqanı kimi. Konqresin iclaslarının keçirilməsi. Vəzifələri və fəaliyyəti.
- **İcra Şurası.** Üzvləri, iclasların keçirilməsi və fəaliyyəti;

➢ **Regional cəmiyyətlər** və onların bölgüsü. Məqsədləri və fəaliyyəti.

➢ **Texniki komissiyalar.** Tərkibi, məqsədləri və fəaliyyət sahələri.

➢ **Katiblik.** Funksiya və səlahiyyətləri. Baş katib və onun vəzifələri.

ÜMT-nın əsas fəaliyyət proqramları və onların reallaşdırılması. Təşkilatın regional qurum və texniki komitələri. Ozon təbəqəsinin qorunmasına dair ÜMT proqramları və təşkilatın fəaliyyət perspektivləri. Təşkilatın üzvləri (179). İqamətgahı (Cenevrə).

Azərbaycan Respublikasının ÜMT ilə əməkdaşlığı.

### 4.7. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT; ICAO; ИКАО)

Çikaqo konfransı (1944) və BMAT-ın yaradılması. Təşkilatın məqsəd və vəzifələri. BMAT-ın orqanları:

➢ **Məclis** – ali orqan kimi. Üzvləri, məqsəd və səlahiyyətləri;

➢ **Şura** – ali icra orqanı kimi. Üzvlərin seçilməsi prinsipi. Sessiyaların keçirilməsi müddəti. Şuranın funksiya və səlahiyyətləri. Prezident və onun vəzifələri;

➢ **Katiblik** və onun funksiyaları. Baş katib və onun vəzifələri. Katibliyin strukturu.

Təşkilatın köməkçi orqanları: Komissiya və komitələr. Departamentlər. BMAT-ın əsas fəaliyyət istiqamətləri. Təşkilatın regional bürolarının yaradılması və fəaliyyəti. BMAT üzvü olan dövlətlərin üç kateqoriyası. Təşkilatın strateji fəaliyyət proqramının qəbulu (1992). Beynəlxalq mülki aviasiyanın inkişafı və təhlükəsizliyinin təmin olunması sahəsində BMAT-ın rolu. Təşkilatın üzvləri (135). Qərargah mənzili (Monreal).

Azərbaycan Respublikasının BMAT ilə əməkdaşlığı.



### 4.8. Beynəlxalq Dəniz Təşkilatı (BDT; IMO; ИМО)

Dəniz fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlığa şərtləndirən amillər. "Dənizdə insan həyatının qorunması" haqqında ilk beynəlxalq Konvensiya. London konvensiyası. Dövlətlərarası dəniz məsləhət təşkilatına dair konvensiya (1948). Beynəlxalq Dəniz Təşkilatının yaradılması (22 may, 1982). Təşkilatın məqsəd və vəzifələri. BDT-nin quruluşu orqanları:

➢ **Məclis**, onun üzvləri, vəzifələri və fəaliyyəti;

➢ **Şura** – təşkilatın əsas orqanı kimi. Üzvlərin seçilməsi prinsipi. Funksiya və səlahiyyətləri;

➢ **Katiblik,** onun şöbələri və fəaliyyət sahələri;

➢ **Baş komitələr.** Məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri;

➢ **Alt komitələr** və onların fəaliyyəti.

Təşkilatın təhlükəsizlik, dənizlərin ekologiyasının qorunması, dənizlərdə əməkdaşlıq və s. sahələrə dair konvensiyaları və onların fəaliyyəti. BDT-nin beynəlxalq təhsil ocaqları və onların fəaliyyəti. Təşkilatın üzvləri (150). İqamətgahı (London).

Azərbaycan Respublikasının BDT ilə əməkdaşlığı.

### 4.9. Ümumdünya Poçt İttifaqı (ÜPİ; UPU; ВПС)

ÜPİ-nin yaradılması haqqında Bern konvensiyası (1874). ÜPİ-nin BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi (4 iyul, 1947). Ümumdünya Poçt Konvensiyasının qəbul edilməsi (3 oktyabr, 1957). ÜPİ-nin Tokio (1969), Lozanna (1974), Hamburq (1984), Vaşinqton (1989), Seul(1994), Pekin (1999) konfransları. Təşkilatın fəaliyyət prinsipləri. Təşkilatın orqanları:

➢ **Ümumdünya Poçt Konqresi** – təşkilatın ali orqanı kimi. Üzvləri, funksiya və səlahiyyətləri;

➢ **İcraiyyə Şurası.** Üzvlərin seçilməsi prinsipi. Məqsədləri və fəaliyyət sahələri;

➢ **Poçt tədqiqatlarına dair Məsləhət Şurası.** Üzvləri və onların səlahiyyət müddəti. Məqsədləri və fəaliyyəti;

➢ **Beynəlxalq büro** – daimi orqan kimi. Onun vəzifələri və fəaliyyəti. Katiblik funksiyası.

ÜPİ-nin poçt tədqiqatları və üzv dövlətlərinə texniki yardım proqramları. Təşkilatın üzvləri (190). İqamətgahı (Bern).

Azərbaycan Respublikasının ÜPİ ilə əməkdaşlığı.

### 4.10. Beynəlxalq Elektrorabitə İttifaqı (BEİ; ITU; MCЭ)

Paris konfransı (17 may, 1865). Beynəlxalq Teleqraf İttifaqının yaradılması və fəaliyyəti. BEİ-nin BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi (15 noyabr, 1947). Madrid konfransı (1932). Beynəlxalq Elektrorabitə İttifaqının yaradılması haqqında Konvensiyanın qüvvəyə minməsi (1934). Təşkilatın məqsəd və vəzifələri. BEİ-nin orqanları:

➢ **Səlahiyyətli konfrans** – təşkilatın ali orqanı kimi. Üzvlərin seçilməsi prinsipi. Funksiya və səlahiyyətləri;

➢ **İnzibati Şura.** Üzvləri və onların seçilməsi prinsipi. Vəzifələri, səlahiyyətləri və fəaliyyəti;

➢ **Elektrorabitə üzrə dünya konfransı.** Məqsədləri və fəaliyyəti;

➢ **Elektrorabitənin inkişafı bölməsi.** Məqsədləri və fəaliyyəti;

➢ **Baş Katiblik.** Onun funksiya və səlahiyyətləri. Baş katib, onun seçilməsi və səlahiyyət müddəti.

Elektrorabitə sahəsində 1994-cü il Buenos-Ayres dünya konfransı və onun qərarları. Təşkilatın üzvləri (188). İqamətgahı (Cenevrə).

Azərbaycan Respublikasının BEİ ilə əməkdaşlığı.



### 4.11. Beynəlxalq ƏməkTəşkilatı (BƏT; ILO; MOT)

Versal Sülh Konfransının beynəlxalq əmək normalarının müəyyənləşdirilməsi. Beynəlxalq Əmək Təşkilatının yaradılmasına dair Versal müqaviləsinin XII bölməsi. Təşkilatın BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi (14 dekabr, 1946). BƏT-nın məqsəd və vəzifələri. Təşkilatın orqanları:

➢ **Beynəlxalq Əmək Konfransı.** İclasları. Üzvlərin seçilməsi prinsipi. Funksiya və səlahiyyətləri;

➢ **İnzibati Şura.** Üzvlərinin seçilməsi prinsipi və səlahiyyət müddəti. Vəzifələri və fəaliyyəti;

➢ **Beynəlxalq Əmək Bürosu.** Funksiya və səlahiyyətləri. Üzvləri və onların seçilməsi prinsipi. Regional və sahə nümayəndələri;

➢ **Regional və xüsusi konfranslar.** İclasların keçirilməsi. Məqsədləri və fəaliyyət sahələri.

BƏT-nın qəbul etdiyi beynəlxalq əmək normaları. Beynəlxalq Əmək Kodeksi. Təşkilatın texniki əməkdaşlıq Proqramı. Peşə və Sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə dair proqramlar. BƏT-nın tədqiqat işləri sahəsində fəaliyyəti. Sosial Əmək Problemləri Beynəlxalq İnstitutu (1960), Texniki və Peşə hazırlığı Beynəlxalq Mərkəzi (1965) və onların fəaliyyət istiqamətləri.

BƏT-nın beynəlxalq əmək normaları haqqında konvensiya və tövsiyələri. BƏT-nın uşaq əməyinin qadağan olunması sahəsində fəaliyyəti. BƏT və məşğulluq problemi. Təşkilatın gender proqramları, qadın əməyinin mühafizəsi və iş yerləri problemləri ilə əlaqədar fəaliyyəti. Təşkilatın işçi dilləri. Təşkilatın üzvləri (175). İqamətgahı (Cenevrə).

Azərbaycan Respublikasının Beynəlxalq ƏməkTəşkilatı ilə əməkdaşlığı.

### 4.12. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST; WHO; BO3)

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində səhiyyə və sağlamlığın qorunması ilə bağlı görülən tədbirlər və ilk beynəlxalq sanitar təşkilatının meydana gəlməsi (1907). Ümumdünya Səhiyyə Təşkilatının yaradılmasının şərtləndirən amillər və təşkilatın yaradılması (7 aprel, 1948). ÜST-nın başlıca məqsəd, vəzifə və funksiyaları. Təşkilatın orqanları:

- **Ümumdünya Səhiyyə Məclisi** – təşkilatın ali orqanı kimi. Üzvləri və onların seçilməsi prinsipi. Funksiyaları, vəzifə və səlahiyyətləri;
- **İcra Şurası.** Onun üzvləri. İclaslarının keçirilməsi, vəzifələri, funksiya və səlahiyyətləri;
- **Katiblik** və onun şöbələri. Funksiya və səlahiyyətləri. Baş direktor və vəzifələri;
- **Regional komitə və bürolar.** Onların üzvləri, vəzifələri və fəaliyyət sahələri:
- **ÜST-nın yerlərdə nümayəndələri.** Onların vəzifə və səlahiyyətləri.

Sağlamlığın qorunmasını şərtləndirən Alma - Ata bəyannaməsi (may, 1978). "2000-ci il üçün Hamıya sağlamlıq" proqramı (may, 1981). QİÇS ilə mübarizə üçün Ümumdünya Proqramnın qəbulu (1987). Təşkilatın üzvləri (189). Təşkilatın iqamətgahı (Cenevrə).

Azərbaycan Respublikasının Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığı.

### 4.13. BMT-nın Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı (YUNESKO; UNESCO; ЮНЕСКО)

London konfransı (25 oktyabr, 1945) və BMT-nın Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatının yaradılması. YUNESKO-nun başlıca məqsəd və vəzifələri. Təşkilatın orqanları:

- **Baş Konfrans** – təşkilatın ali orqanı kimi. Üzvlərinin seçilməsi prinsipi. Konfransın çağırılması qaydası. Qərarların qəbulu prosedurası. Konfransın funksiya və səlahiyyətləri;



- **İcraiyyə Şurası.** Üzvlərinin seçilməsi prinsipi. Vəzifə və səlahiyyətləri;
- **Milli Komissiyalar.** Məqsəd və vəzifələri. Fəaliyyət sahələri;
- **Regional Büro.** Məqsədləri və fəaliyyət istiqamətləri;
- **Katiblik.** Funksiya və səlahiyyətləri. Baş direktor və onun vəzifələri. Şöbələr və onun fəaliyyəti.

YUNESKO-nun əsas tərəfdaşları və fəaliyyətinin əsas istiqamətləri. Təşkilatın tərcümə və qlobal proqramları. Beynəlxalq proqramların həyata keçirilməsi və təşkilatın bir sıra komitə və komissiyalarla əməkdaşlığı. "Müəllif hüquqlarına dair Ümumdünya Konvensiyası", "Ümumdünya Mədəni və təbii irsin qorunmasına haqqında Konvensiya", "İrqlər və irqi mövhumat haqqında bəyannamə" və s. beynəlxalq sənədlərin hazırlanmasında YUNESKO-nun iştirakı. YUNESKO-nun insan hüquqları, beynəlxalq təhlükəsizlik, təhsil və tərbiyyə məsələləri ilə əlaqədar təşkil etdiyi beynəlxalq konfranslar. Monreal (1993), Nayrobi (1995), Cakarta (1995), Paris (1996) və s. Təşkilatın üzvləri (183). Təşkilatın mənzil qərargahı (Paris).

Azərbaycan Respublikasının YUNESKO ilə əməkdaşlığı.

### 4.14. Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı (ÜİMT; WIPO; ВОИС)

Sənaye Mülkiyyətinin Mühafizəsinə dair Paris Konvensiyası (1883). Ədəbi bədii əsərlərin mühafizəsinə dair Bern Konvensiyası (1886). Stokholm konfransı (1967) və Ümumdünya İntellektual Mülkiyyət Təşkilatının yaradılması. Təşkilatın məqsəd və vəzifələri. ÜİMT-nın orqanları:

- **Baş Məclis** – təşkilatın ali orqanı kimi. Məqsəd və vəzifələri. Sessiyaların keçirilməsi;

➢ **Konfrans**. Onun üzvləri, məqsədləri və fəaliyyəti;

➢ **Koordinasiya Komitəsi.** Üzvlərinin seçilməsi prinsip. Funksiya və səlahiyyətləri;

➢ **Beynəlxalq Büro** – təşkilatın daimi orqanı kimi. Məqsədləri və fəaliyyəti. Baş direktor, onun səlahiyyət müddəti və fəaliyyəti..

Təşkilatın BMT ilə əməkdaşlığına dair saziş (17 dekabr, 1974) və onun ixtisaslaşmış quruma çevrilməsi. ÜİMT-nın bir sıra beynəlxalq müqavilə, saziş və razılaşma əsasında fəaliyyətinin əsas istiqamətləri: əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid İttifaqı (1891), Lokarno Konvensiyası (1968), Beynəlxalq Patent Təsnifatı müqaviləsi (1971), Olimpiya simvolunun qorunmasına dair Nayrobi müqaviləsi (1981), Sputnik əlaqəsi yarandıqdan sonra imzalanmış Brüssel Konvensiyası (1974), Filmlərin qeydiyyatı müqaviləsi, əmtəə ünvanlarının qorunması sazişi (1989) və s. Təşkilatın üzvləri (169). Mənzil qərargahı (Cenevrə).

Azərbaycan Respublikasının ÜİMT ilə əməkdaşlığı.

## Mövzu 5. BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARINA DAXİL OLMAYAN BMT PROQRAMLARI VƏ İNSTİTUTLARI - 2 saat

### 5.1. Ümumdünya Ticarət Təşkilatı (ÜTT; WTO; ВТО)

Təşkilatın yaradılması (1947). ÜTT-nın məqsəd və vəzifələri. Təşkilatın quruluşu:

➢ **Nazirlər Konfransı.** Üzvləri, məqsədləri və fəaliyyəti;

➢ **Ümumi Şura.** Funksiya və səlahiyyətləri. Komissiyalar və onların fəaliyyəti;

➢ **Köməkçi orqanları.** Onların məqsədləri və fyəaliyyət sahələri;

➢ **Katiblik.** Funksiya və səlahiyyətləri. Baş direktor, onun müavinləri və vəzifələri;



➢ **Beynəlxalq Ticarət Mərkəzi** – təşkilatın texniki əməkdaşlıq orqanı kimi. Məqsədləri, fəaliyyəti və inkişaf etməkdə olan ölkələrələ əməkdaşlıq.

Uruqvay danışıqları (1986-1993) və Yekun Aktın imzalanması. Təşkilatın Sinqapur sessiyası (1996). Qəbul edilən yekun bəyannamə və onun mahiyyəti. ÜTT-nın fəaliyyətinin başlıca istiqamətləri. Təşkilatın üzvləri (128). Qərargah mənzili (Cenevrə).

Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlığı.

### 5.2. BMT İnkişaf Proqramı (BMT İP; UN DP; ПРО ОН)

Təşkilatın yaradılması (yanvar, 1966), BMT İnkişaf Proqramının məqsəd və vəzifələri.BMT İP-nın dünya üzrə fəaliyyət göstərən şöbələri. Təşkilatın quruluşu:

➢ **Müdirlər Şurası.** Üzvləri və onların seçilməsi prinsipi. İclasları və fəaliyyəti;

➢ **Katiblik.** Funksiya və səlahiyyətləri. Fəaliyyəti.

BMT İP-nın fondları, proqramları və onların fəaliyyət istiqamətləri :

- BMT Könüllülər Proqramı;
- BMT Qadın naminə inkişaf Fondu;
- Ekoloji fəlakətlə mübarizə İdarəsi;
- BMT-nın əsaslı inkişaf Fondu;
- BMT-nın elmi-texniki İnkişaf Fondu;
- BMT-nın təbii ehtiyatları mühafizə Fondu.

Təşkilatın maliyyə mənbələri. Üzvləri (174). Katibliyin iqamətgahı (NYU-York).

Azərbaycan Respublikasının və BMT İnkişaf Proqramı.

### 5.3. BMT Uşaq Fondu (YUNİSEF; UNISEF; ЮНИСЕФ)

Təşkilatın yaradılması (11 dekabr, 1946). UNİSEF-in məqsəd və vəzifələri. Təşkilatın quruluşu:

➢ **İcraiyyə Şurası** – təşkilatın rəhbər orqanı kimi. Üzvlərinin seçilməsi prinsipi. Vəzifə və səlahiyyətləri;

➢ **Regional şöbələr.** Məqsədləri və fəaliyyət sahələri.

Təşkilatın Nobel mükafatına layiq görülməsi (1965). Uşaq Fondunun yardımları və onun həyata keçirilməsi formaları. YUNİSEF-in dünya üzrə əsas fəaliyyət istiqamətləri. Təşkilatın dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlığı. YUNİSEF-in maliyyə mənbələri və mətbu orqanları. "Uşaq hüququ Bəyannaməsi"nin qəbul edilməsi (1959). "Ümumdünya Uşaq Hüquqları haqqında" Konvensiyanın qəbulu (dekabr, 1989). Üzvləri (113). Təşkilatın mənzil qərargahları (Nyu-York, Kopenhaqen, Florensiya).

Azərbaycan Respublikasının UNİSEF ilə əməkdaşlığı.

### 5.4. BMT-nin Qaçqınların işi üzrə Ali Komissarı İdarəsi (QAKİ; UNCHR; ВКДБ ООН)

Təşkilatın yaradılması (3 dekabr, 1949). QAKİ-nin məqsəd və vəzifələri. Təşkilatın quruluşu:

➢ **Ali Komissar.** Vəzifələri və səlahiyyət müddəti. Fəaliyyəti;

➢ **İcraiyyə Komitəsi.** Üzvləri və vəzifələri. Sessiyalarının keçirilməsi qaydası;

➢ **Katiblik.** Onun funksiya və səlahiyyətləri.

QAKİ-nin dünya üzrə fəaliyyət göstərən şöbələri. Təşkilatın dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlığı. QAKİ-nin iki dəfə Nobel mükafatına layiq görülməsi (1954; 1981). "Qaçqınların statusu haqqında Konvensiya" (1951) və Protokol (1967). Təşkilatın fəaliyyətinin əsas istiqamətləri. Üzvləri (136). Katibliyin iqamətgahı (Cenevrə).

Azərbaycanda BMT QAKİ-nin nümayəndəliyinin yaradılması və təşkilat ilə əməkdaşlıq.



### 5.5. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA; IAEA; МАГАТЕ)

Atom enerjisindən qeyri-dinc məqsədlərlə istifadəyə qarşı BMT-nin mübarizəsi və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin yaradılması. AEBA-nın nizamnaməsinin qəbulu (29 iyul, 1957) və təşkilatın xüsusi statusu. Təşkilatın məqsəd, vəzifə və funksiyaları. AEBA-nın quruluşu:

➢ **Baş Konfrans** – təşkilatın ali orqanı kimi. Məqsədləri, sessiyaları və səlahiyyətləri;

➢ **Müdirlər Şurası.** təşkilatın icra orqanı kimi. Üzvlərin seçilməsi prinsipi. Məqsəd və vəzifələri. Şuranın daimi komitələri;

➢ **Katiblik.** Vəzifələri. Funksiya və səlahiyyətləri. Baş direktor və onun vəzifələri;

➢ **Elmi məsləhət komitəsi.** Üzvləri, vəzifələri, funksiya və səlahiyyətləri.

Təşkilatın atom enerjisindən dinc məqsədlərlə istifadə olunmasına nəzarət sahəsində fəaliyyəti. AEBA-nın əsas fəaliyyət istiqamətləri və təminat proqramı.Təşkilatın nüvə silahının yayılmasına dair 1968-ci il müqaviləsinin iştirakçısı olan qeyri-nüvə dövlətləri arasında münasibətlər. AEBA-nın fövqəladə vəziyyətlərdə fəaliyyəti. Təşkilatın İraqın kütləvi qırğın silahına yiyələnməsinə qarşı mübarizəsi.

AEBA-nın müfəttişləri. Səlahiyyətləri və fəaliyyəti. Təşkilatın beynəlxalq işçi qrupu. Üzv dövlətləri arasında həyata keçirilən elmi-tədqiqat proqramları. Təşkilatın üzvləri (127). Qərargah mənzili (Vyana).

Azərbaycanın atom enerjisi ilə bağlı beynəlxalq konvensiyalara qoşulması. Azərbaycan - AEBA əməkdaşlığı.

## Mövzu 6. AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI /ATƏT; OSCE; ОБСЕ/ - 6 saat

### 6.1. ATƏT-in yaradılması, məqsəd və vəzifələri

Hərbi-siyasi blokların qarşılanması və sürətlə silahlanmanın daha da artması. XX əsrin 70-ci illərinin əvvəllərində Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün atılan addımlar. Şərqlə Qərb arasında gərginliyin zəiflədilməsi naminə göstərilən səylər. SSRİ ilə ABŞ, Varşava müqaviləsi iştirakçısı olan dövlətlərlə NATO üzvü olan dövlətlər arasında imzalanan müqavilələr: SSRİ, ABŞ, Böyük Britaniya və Fransa arasında Qərbi Berlinə dair dördtərəfli saziş (sentyabr, 1971), SSRİ-Fransa (oktyabr, 1971) qarşılıqlı münasibətlər haqqında, Strateji hücum silahlarının məhdudlaşdırılması haqqında SSRİ-ABŞ (may, 1972) müqavilələri (SSM-1)

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) çağrılması üçün aparılan danışıqlar (22 noyabr, 1972-8 iyun, 1973) Dipoli, Helsinki. 33 Avropa dövləti (Albaniya istisna edilməklə), ABŞ və Kanada nümayəndələrinin iştirakı ilə keçirilən ATƏM-in Helsinki müşavirəsinin birinci mərhələsi (3-9 iyul, 1973). Cenevrədə keçirilən danışıqların ikinci mərhələsi (18 sentyabr, 1973-21 iyul, 1975). 35 ölkənin dövlət və hökümət başçılarının imzaladığı ATƏM-in Yekun Aktı (30 iyul-1 avqust, 1978) və onun mahiyyəti. ATƏM-in məqsəd və vəzifələri.

ATƏM-in təhlükəsizlik və əməkdaşlığın genişləndirilməsi üçün keçirdiyi görüşlər: Belqrad (4 oktyabr 1977-8 mart, 1978); (11 noyabr, 1980 – 5 sentyabr, 1983) və Vyana (4 noyabr, 1986-19 yanvar 1989) və Avropada sülhün qorunub saxlanmasına, regional və beynəlxalq münasibətlərin tənzimlənməsinə dair qəbul edilən sənədlər.



SSRİ və sosializm dünyasının süqutu. Berlin divarının sökülməsi. (9 noyabr, 1989). Vahid alman dövlətinin yaradılması (12 sentyabr, 1990). Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) fəaliyyətinə xitam verilməsi (30 iyun, 1991). Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi (1 iyul, 1991). Soyuq müharibənin başa çatması. ATƏM-in fəaliyyətində yeni dövrün başlanması. Yeni Avropa üçün Paris Xartiyasının hazırlanması (19-21 noyabr, 1990).

ATƏM-in bir sıra institutlarının yaradılması. Berlində (1991), Praqada (1992), Stokholmda (1992), Helsinkidə (1992), Romada (1993), Budapeştdə (1994), Lissabonda (1996), İstanbulda (1999) keçirilən görüşlər.

### 6.2. ATƏT-in strukturu və institutları

- **Dövlət və hökumət başçılarının Zirvə toplantısı.** Bu yüksək səviyyəli görüşün keçirilməsinin qərara alınması.

Paris Zirvə toplantısı (19-21 noyabr, 1990). ATƏM-in fəaliyyətində əsaslı dönüş. Avropada adi silahlar haqqında müqavilənin və Varşavada demokratik institutlar və insan hüquqları üzrə Büronun təsis edilməsi.Yeni Avropa üçün Paris Xartiyası və onun mahiyyəti.

Helsinki Zirvə toplantısı (9-10 iyul, 1992). Milli azlıqların işi üzrə Ali Komissar, Təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə Forum və s. təşkilatların yaradılması. Qəbul edilən digər sənədlər və onların mahiyyəti.

Budapeşt Zirvə toplantısı (5-6 dekabr, 1994). ATƏM tarixində yeni mərhələ. "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı qəbul edilən sənəd və onun mahiyyəti. ATƏM-in tərkibində struktur dəyişikliklər və onun fəaliyyətinin genişləndirilməsi. 1995-ci il yanvarın 1-dən ATƏM-in Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırılması haqqında qərarın qəbul edilməsi.

Lissabon Zirvə toplantısı (2-3 dekabr, 1996). Toplantıda Avropa və dünyada baş verən proseslər, o cümlədən qarşılıqlı təhlükəsizlik və əməkdaşlıq, insan haqqlarının qorunması, demokratikləşdirmə və münaqişənin həlli ilə bağlı məsələlərin müzakirəsi.

İstanbul Zirvə toplantısı (18-19 noyabr, 1999). Avropa Təhlükəsizlik Xartiyası haqqında qəbul edilən İstanbul deklarasiyası və onun mahiyyəti. Avropada Adi Silahlar haqqında qəbul edilən müqavilənin adoptasiya olunması barədə razılaşma. Zirvə toplantısında müzakirə olunan digər məsələlər.

- **ATƏT-in xarici işlər nazirlərinin Şurası.** Yaradılması (1990). Əsas məqsədi və fəaliyyət istiqamətləri. Şuranın iclaslarının keçirilməsi qaydası.
- **Yüksək Vəzifəli Şəxslər Komitəsi** (1994-cü ilin dekabrından Rəhbər Şura). Yaradılması (1990). Məqsəd və vəzifələri. Şuranın iclaslarının keçirilməsi qaydası.
- **ATƏT-in fəaliyyətdə olan sədri.**Təsis edilməsi (1990). Vəzifələri və fəaliyyəti.
- **Daimi Komitə (1994-cü ilin dekabrından Daimi Şura).** Yaradılması (dekabr, 1993). Məqsəd və vəzifələri. Fəaliyyəti və iclasların keçirilməsi qaydası. Qərargah mənzili (Xofburq mərkəzi, Vyana).
- **Milli azlıqların işi üzrə Ali Komissar.** Təsis edilməsi (dekabr, 1992). Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərargahı (Haaqa).
- **Təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə Forum.** Təsis edilməsi (iyul, 1992). Məqsəd və vəzifələri. Görüşləri və fəaliyyəti. Qərargahı (Xofburq mərkəzi, Vyana).
- **Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Büro.** Yaradılması (1990). Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərargah mənzili (Varşava).



- **ATƏT-in Parlament Assambleyası.** Yaradılması (aprel, 1991). Məqsədləri. Tərkibi və iclasların keçirilməsi qaydası. Əsas komitələri. Qərargah mənzili (Kopenhagen).
- **ATƏT-in Katibliyi.** Təsis edilməsi (1991, Praqa). Məqsəd və vəzifələri. Şöbələri, tərkibi və fəaliyyəti. Qərargah mənzili (Vyana).
- **Baş Katib.** Onun funksiyaları və səlahiyyət müddəti. Seçilməsi. Məqsəd, vəzifələri və fəaliyyəti.
- **Münaqişələrin həlli mərkəzi.** Məqsədi və fəaliyyət istiqamətləri.
- **ATƏT-in missiyaları.** Bosniya və Hersoqovina, Xorvatiya, Kosovo, Serbiya və Çernoqoriya, Makedoniya, Gürcüstan, Latviya, Estoniya, Moldova, Tacikistanda fəaliyyət göstərən missiyalar. Missiyaların məqsəd və vəzifələri. Sanksiyaların müdafiəsi üzrə missiyalar (keçmiş Yuqoslaviya Respublikası ilə həmsərhəd olan bütün ölkələrdə fəaliyyət göstərir).
- **Barışıq və Arbitraj Məhkəməsi.** Təsis edilməsi (dekabr, 1994). Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərargahı (Cenevrə).
- **Birgə Məsləhətləşmə qrupu.** Yaradılması (1990). Məqsəd və vəzifələri. Fəaliyyəti. Qərargahı (Vyana).
- **Açıq Səma üzrə Məsləhətləşmə Komissiyası.** Təsis edilməsi (1992). Məqsəd və vəzifələri. İclasların keçirilməsi və tərkibi. Qərargahı (Vyana).

ATƏT-in digər institutları: Faktların araşdırılması üzrə missiyalar və məruzəçilərin missiyası, Fəaliyyətdə olan sədrin şəxsi nümayəndəsi, Yüksək səviyyəli Planlaşdırma qrupu və s. ATƏT-in maliyyələşdirilməsi və üzvləri (56).

### 6.3. ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti

ATƏM/ATƏT-in xüsusi missiyasının münaqişə bölgəsinə səfərləri (27-28 fevral, 1992; 19-23 mart, 1992). ATƏM-in Xarici işlər Nazirləri Şurasının Helsinkidə keçirilən görüşündə ATƏM-in Dağlıq Qarabağa dair Minsk konfransının çağrılması haqqında qərarı (24 mart, 1992). ATƏM-in Dağlıq Qarabağa dair keçiriləcək konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında Yüksək Vəzifəli Şəxslər Komitəsinin qərarı (1 may, 1992). ATƏM-in Minsk konfransının ilk sədrinə mandat verilməsi (Mario Rafaelli, İtaliya) və 11 dövlətin nümayəndəsindən ibarət Minsk qrupunun yaradılması.

ATƏM-in Minsk qrupunun Romada keçirilən 5 mərhələdən ibarət danışıqları (1-5 iyun, 1992; 15-20 iyun, 1992; 29 iyun-7 iyul, 1992; 26 fevral-1 mart, 1993; 3-4 iyun, 1993). "Con Mareska planı" (sentyabr, 1992).

BMT TŞ-nin 822 saylı qətnaməsinin yerinə yetirilməsinə dair hazırlanan ATƏM-in Minsk qrupunun Romada hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" (3-4 iyun, 1993). Azərbaycan və Ermənistanın bu "cədvələ" münasibəti. ATƏM-in Praqada keçirilən görüşündə BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair Minsk qrupu tərəfindən hazırlanmış yeni "Təxirəsalınmaz tədbirlər cədvəli" (28 sentyabr, 1993). Münaqişə tərəflərinin mövqeyi.

ATƏM-in Vyanada keçirilən görüşündə BMT TŞ-nin 822,853 və 874 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsalınmaz tədbirlər cədvəli" (2-8 noyabr, 1993). Azərbaycan və Ermənistanın "Vyana" cədvəlinə münasibəti. 1994-cü ilin əvvəllərindən başlayaraq Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Rusiya-ATƏM (Qərb) ziddiyyətləri. ATƏM-in Minsk



qrupunun Praqada keçirilən görüşündə işlənib hazırlanan "Etibarı möhkəmləndirmək tədbirləri" adlı plan (11-15 aprel, 1994). ATƏM-in Minsk qrupunun Vyanada keçirilən iclasında Rusiya tərəfindən hazırlanan Böyük Siyasi Sazişin müzakirəsi (7-8 iyul, 1994). ATƏM-in fəaliyyətdə olan sədrinin beynəlxalq sülhməramlı qüvvələrinin yaradılması haqqında təklifi və onun qəbul edilməsi (24 oktyabr, 1994).

ATƏM-in Budapeştə keçirilən Zirvə toplantısında qəbul edilən sənədlərin "Regional məsələlər" hissəsində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" adlı bölmə. Həmsədrlik institutununu təsis edilməsi. Rusiyanın daimi həmsədr təyin edilməsi. Münaqişə bölgəsinə beynəlxalq sülhməramlı qüvvələrin göndərilməsi barədə qərar.

ATƏT-in Minsk qrupunun 1995-ci il ərzində Rusiya və Finlandiya nümayəndələrinin həmsədrliyi ilə Moskva, Stokholm, Helsinki, Baden, Bonn və Budapeştdə aparılan danışıqlar və onun nəticələri. Rusiya, ABŞ, Türkiyə və Almaniyanın ATƏT-in Minsk qrupunda nümayəndələrinə xüsusi səlahiyyətli səfir statusunun verilməsi. 1996-cı ildə Moskva, Stokholm, Frankfurt, Amsterdamda keçirilən ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar. ATƏT-in Lissabon Zirvə toplantısının Yekun bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün tanınmasını özündə əks etdirən 20-ci maddə və Ermənistanın bunun əleyhinə çıxış etməsi. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı.

Lissabon sammitindən sonra Finlandiyanın həmsədrlik müddəti başa çatdığına görə Fransa nümayəndəsinin Minsk Qrupuna ikinci həmsədr seçilməsi (yanvar, 1997). ABŞ Dövlət katibinin müavini S. Tebottun üçüncü həmsədr təyin edilməsi (14 fevral, 1997).

ATƏT-in Minsk Qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması üçün irəli sürülən təklifləri: Münaqişənin həllinin "paket" variantı (iyul, 1997); Nizamlanmanın "mərhələli" həll variantı (sentyabr, 1997); "ümumi dövlət" prinsipi (9 noyabr, 1998). Planların həyata keçirilməməsi səbəbləri. Ermənistanın irəli sürülən bu təkliflərə münasibəti. Danışıqların nəticəsiz qalmasının səbəbləri; ATƏT-in 1999-cu il noyabrın 18-19-da İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilən Yekun Bəyannamə.

ATƏT-in Xarici İşlər Nazirləri Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Bəyanatı (dekabr 2004); Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in Astanada keçirilən VII Sammitində iştirakı və çıxış etməsi (1-2 dekabr 2010); Münaqişənin "Paris prinsipləri" adını almış həll variantı (2001); Mahiyyətcə "mərhələli həll" planını ehtiva edən Praqa formatı; Münaqişənin nizama salınmasına dair aparılan danışıqların "Praqa prosesi" adını almış danışıqların novbəti mərhələsi; "Praqa prosesi" çərçivəsində işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri (2004-2007); Bakıda ATƏT Parlament Assambleyasının "Helsinki+40: Hər kəs üçün təhlükəsizliyə doğru" devizi altında iyirmi üçüncü illik sessiyasının plenar iclasının keçirilməsi (28 iyun 2014); Münaqişənin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti.

## Mövzu 7. ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI /NATO; NATO; HATO / - 4 saat

### 7.1. NATO-nun yaradılması, məqsəd və vəzifələri

İkinci Dünya müharibəsindən sonra beynəlxalq siyasi vəziyyətdə dəyişikliklər və ziddiyyətlər. Dünyanın iki siyasi sistemə



bölünməsi və "Soyuq müharibə"nin başlanması. SSRİ ilə ABŞ və onun başçılıq etdiyi kapitalist dövlətləri ilə qarşıdurmanın dərinləşməsi.

1945-1947-ci illərdə Qərblə Şərq arasında ziddiyyətlərin daha da kəskinləşməsi. 1946-cı il martın 5-də Uilyam Çörçilin ABŞ-ın Fulton Universitetində tarixi çıxışı. 1947-ci il martın 12-də ABŞ Konqresinə edilən müraciət və "Trumen doktrinasının" meydana gəlməsi. ABŞ dövlət katibinin 1947-ci il iyulun 5-də Harvard Universitetindəki çıxışı və "Marşall" planının elan edilməsi.

1947-1949-cu illərin siyasi hadisələri. Qərbi Avropanın 5 dövlətinin- Belçika, Lüksemburq, Hollandiya, Böyük Britaniya və Fransanın imzaladığı Brüssel müqaviləsi (mart, 1948). Avropa dövlətlərinin Şimali Amerika arasında təhlükəsizlik təminatlarına və qarşılıqlı öhdəliklərinə əsaslanacaq Şimali Atlantika İttifaqının yaradılması haqqında ABŞ və Kanada ilə aparılan danışıqlar. Brüssel müqaviləsini imzalamış dövlətlərə daha 5 Avropa dövlətinin (Danimarka, İslandiya, İtaliya, Norveç və Portuqaliya) qoşulması.

1949-cu il aprelin 4-də imzalanmış Vaşinqton müqaviləsi və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) yaradılması.Müqaviləni imzalamış 12 dövlətə daha 4 dövlətin qoşulması (1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə Almaniya Federativ Respublikası və 1982-ci ildə İspaniya) və üzvlərin sayılarının 16-ya çatması. Təşkilatın əsas məqsəd, vəzifə və prinsipləri.

1980-cı illərin sonu 90-cı illərin əvvəllərində Avropada baş verən siyasi dəyişikliklər və "Soyuq müharibə" dövrü başa çatdıqdan sonra NATO-nun gələcək vəzifələri. NATO-nun London sammiti "Şimali Atlantika alyansı dəyişikliklər prosesində". 14 iyul 1990-cı il London Bəyannaməsi. NATO-nun Roma sammiti "Sülh və əməkdaşlıq haqqında" 1991-ci il Roma Bəyannaməsi. "Alyansın yeni strateji konsepsiyası" (1991). 1994-cü il yanvarın

10-11-də keçirilən NATO-nun Brüssel sammiti "Sülh naminə tərəfdaşlıq" proqramının qəbul edilməsi. Proqramın mahiyyəti, məqsəd və vəzifələri.

NATO üzvü olan dövlətlər SSRİ, Çexiya, Macarıstan, Polşa, Rumıniya, Bolqarıstan, Latviya, Litva, Estoniya xarici işlər nazirləri və nümayəndələrinin iştirakı ilə Şimali Atlantika Əməkdaşlıq Şurasının təsis sessiyasının keçirilməsi (20 dekabr, 1991). ŞAƏŞ-nın məqsəd və vəzifələri.

Avro-Atlantika məkanında kollektiv təhlükəsizlik sistemi yaratmaq üçün Mərkəzi-Şərqi Avropa (MŞA) ölkələri ilə sıx əməkdaşlıq. NATO-nun Şərqə doğru genişlənməsi. MŞA dövlətləri - Polşa, Çexiya, Macarıstanın NATO-ya üzv qəbul edilməsi (1999) və üzvlərin sayının 19-a çatması.

### 7.2. NATO-nun quruluşu və orqanları

- **Şimali Atlantika Şurası. Daimi Şura.** Yaradılması. Məqsəd və vəzifələri.

Dövlət və hökumət başçıları və xarici işlər nazirləri səviyyəsində ildə iki dəfə keçirilən iclasları. Həftədə bir dəfə toplanan Daimi Şuranın fəaliyyət istiqamətləri.

- **Müdafiə planlaşdırma komitəsi.** Yaradılması. Üzvləri. Məqsəd və vəzifələri. Səfirlər səviyyəsində müntəzəm, müdafiə nazirləri səviyyəsində isə ildə iki dəfə keçirilən iclaslar.
- **Nüvə planlaşdırma qrupu.** Yaradılması. Məqsəd vəzifə və fəaliyyət istiqamətləri.
- **Baş Katib.** Seçilməsi. Hüquq və vəzifələri. Səlahiyyət və məsuliyyəti. Beynəlxalq Katiblik. Tərkibi. Baş Katibliyin Dəftərxanası. Baş Operativ bölmə, İnzibati, İnformasiya və Maliyyə nəzarət Büroları.
- **Hava kosmik məkanından istifadə üzrə Avropa əlaqələndirmə komitəsi.** Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri.



NATO-nun digər müxtəlif məsələlər üzrə komitə, ekspert və işçi qrupları.

- **Şimali Atlantika Assambleyası.** NATO üzvü olan dövlətlərin parlamentlərarası orqanının yaradılması, məqsəd və vəzifələri. Fəaliyyəti. Komitələri: siyasi komitə, iqtisadi komitə, hərbi komitə, mülki məsələlər üzrə komitə, elm və texnika üzrə komitə.

Hərbi məsələlər üzrə NATO-nun orqanları:

- Hərbi Komitələr. Daimi hərbi komitə. Yaradılması. Məqsəd və vəzifələri.

Baş qərargah rəhbərlərinin ildə iki dəfə keçirilən toplantıları. Baş qərargah rəislərinin daimi nümayəndələrindən ibarət olan və müntəzəm iclaslar keçirən Daimi hərbi Komitə. Vəzifə, səlahiyyət və məsuliyyəti.

- Beynəlxalq hərbi qərargah. Üzv dövlətlərin ezamiyyəyə göndərilmiş hərbiçilərindən və yardımçı mülki şəxslərdən ibarət-Beynəlxalq hərbi qərargahın vəzifələri. NATO-nun qərargah mənzili (Brüssel).

**Azərbaycan Respublikasının NATO ilə ilkin siyasi münasibətləri.** Azərbaycanın ŞAƏŞ-nın xarici işlər nazirləri səviyyəsində keçirilən sessiyasında iştirakı və həmin quruma üzv qəbul edilməsi (10 mart, 1992). NATO-nun Dağlıq Qarabağa dair qəbul etdiyi bəyanat (may, 1992).

Azərbaycan-NATO münasibətlərinin yeni mərhələsi. 1994-cü il yanvarın 11-də NATO üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Brüsseldə keçirilən Zirvə toplantısı və "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının elan edilməsi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Brüsseldə "Sülh naminə tərəfdaşlıq" proqramını imzalaması (4 may, 1994) və Azərbaycanın bu proqrama qoşulması.

Brüsseldə NATO-nun qərargah mənzilində Azərbaycan Res-

publikasının Prezidenti Heydər Əliyevin təşkilatın Baş katibi H. Solana ilə görüşü. (23 aprel, 1996). Azərbaycan Respublikasının NATO ilə "SNT" proqramı çərçivəsində əməkdaşlığını təsdiqləyən şərtləndirən Prezentasiya sənədinin imzalanması.

Azərbaycan-NATO münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması. NATO Baş Katiblərinin Azərbaycana səfərləri: H.Solana (fevral, 1997 – sentyabr, 1998). C. Robertson (yanvar, 2001). Azərbaycan-NATO çoxtərəfli əməkdaşlığının hazırki durumu və perspektivləri; Azərbaycan Respublikasının NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edilməsi (19 noyabr, 2002); 2003-cü ildə Azərbaycan NATO-nun çevik əməliyyat qüvvələrinin yaradılması və inkişafına dair proqram konsepsiyasına qoşulması; Prezident İlham Əliyevin Brüsseldə NATO-nun baş katibi Yaap de Hoop Sxefferlə görüşləri (19 may, 2004; 8 noyabr, 2006); Azərbaycanın hazırladığı Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planının (İPAP - İndividual Partnership Action Plan) təqdimat sənədi; NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun Azərbaycana səfərləri; Dövlət və hökumət başçılarının iştirakı ilə NATO-nun Zirvə toplantılarında qəbul olunmuş Bəyannamələr (Riqa, 28-29 noyabr, 2006; Buxarest, 2-4 aprel, 2008; Kil və Strasburq, 3-4 aprel, 2009).

## Mövzu 8. AVROPA ŞURASI /AŞ; CE; CE/ - 6 saat

### 8.1. Avropa Şurasının yaradılması, məqsəd və vəzifələri

Ümumavropa evinin yaradılması ideyasının tarixi kökləri. Fransız kralı IV Henri (1589-1610) o vaxtkı Avropa dövlətlərini birləşdirən "xristian respublikası" yaratmaq planı. 1690-cı ildə ingilis V Peni tərəfindən Avropada ümumavropa parlamenti çağrılması ideyası. Fransız maarifçisi Jan Jak Russo və alman filosofu İmmanuel Kantın Avropa İttifaq dövlətinin yaradılması təklifi. 1876-cı ildə D. Matsçinni, D. Harribaldi və V. Hüqo tərəfindən Parisdə həftəlik "Avropa Birləşmiş Ştatları" qəzetinin nəşri.

I Dünya müharibəsindən sonra ümumavropa evi yaradılması konsepsiyası. Bu məsələ ilə əlaqədar Vyanada keçirilən ilk konqres (1926). Fransız siyasi xadimi A. Brianın Avropa Birləşmiş Ştatları ideyası. Millətlər Cəmiyyətində Avropa İttifaqı üzrə ekspertlər komitəsinin təşkili (1933).

30-cu illərdə müharibə təhlükəsinin artması Avropa dövlətlərinin birləşməsi yolu ilə regionda sülhün təmin edilməsinə yönəldilmiş fikirlərin yayılması.

Avropa Birləşmiş Ştatlarının yaranması haqqında Uinston Çörçilin bəyanatı (oktyabr, 1942). Bu ideyanın təsiri altında Avropada bir sıra ittifaq, assosiasiya və cəmiyyətlərin yaranması və onların Avropanı birləşdirmək hərəkatını əlaqələndirmək üçün beynəlxalq komitənin yaradılması (1947). Avropanın inteqrasiyası probleminə həsr edilmiş konqresin çağırılması(08-10 may, 1948).

1948-ci il martın 17-də Böyük Britaniya, Fransa, Belçika, Hollandiya və Lüksemburq tərəfindən 50 il müddətinə bağlanış Brüssel Paktı və onun iştirakçı dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minməsi (25 avqust, 1948). Avropa konqresinin təsiri altında həmin Paktın Şura iclasında Avropa Assambleyası yaratmaq məqsədilə təklifin irəli sürülməsi (oktyabr, 1948). Böyük Britaniya, Fransa və Belçikanın bu təklifə münasibəti və onların fərqli mövqeləri.

1949-cu ilin yanvarında kompromis qərarın -Avropa Şurası yaradılması qərarının verilməsi. Hökumət və Parlament orqanından ibarət olacaq təşkilatın funksiya və quruluşuna dair qərarın hazırlanması üçün Londonda Brüssel Paktına daxil ölkələr Dani-

marka, İtaliya, İrlandiya, Norveç və İsveçin səfirlərinin iştirakı ilə müşavirənin keçirilməsi (mart, 1949). Təşkilatın Nizamnaməsinin hazırlanması(aprel-may, 1949). Avropa Şurasının üzvü olan ölkələrin Nizamnaməni imzalaması və təşkilatın yaradılması (5 may, 1949). 1949-cu ildə Təşkilatın Nizamnaməsini imzalayan 10 dövlətə (Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İtaliya, Lüksemburq, Fransa, İsveç, Norveç, Hollandiya) 1974-cü ilə kimi daha 8 dövlətin qoşulması: Yunanıstan (1949), Türkiyə (1949), İslandiya (1950), Almaniya (1950), Avstriya (1956), Kipr (1961), İsveçrə (1963), Malta (1966). 1990-cı ilə qədər Avropa Şurasına Portuqaliya (1976), İspaniya (1977), Lixtenşteyn (1978), San-Marino (1988), Finlandiya (1989) daxil olmaqla təşkilatın üzvlərinin sayının 23-ə çatması.

Avropa Şurasının Parlament Assambleyasının Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələrin daha da genişləndirilməsi üçün qəbul etdiyi 917 saylı qətnamənin 1-ci paraqrafında "xüsusi dəvət olunmuş" statusunun müəyyən edilməsi (may, 1989)

"Xüsusi dəvət olunmuş" statusunu alan dövlətlərin nümayəndələrinin Avropa Şurasının bir orqanında - Parlament Assambleyasında təmsil olunması. İlk dəfə "xüsusi dəvət olunmuş" statusunun verilməsi (SSRİ, Macarıstan, Polşa, Yuqoslaviya). Hazırda Avropa Şurası üzvlərinin sayının 45-ə çatması. Təşkilatın məqsəd və vəzifələri.

### 8.2. Avropa Şurasının strukturu və orqanları

- **Nazirlər Komitəsi** - icraedici və sərəncamverici orqan kimi. Hər bir dövlətin nümayəndəsinin Nazirlər Komitəsində təmsil olunması və onların səsvermə hüququ. Nazirlər Komitəsinin ildə iki dəfə keçirilən iclasları və Komitənin sədri funksiyası. Nazirlər Komitəsinin məqsəd və funksiyaları.



Nazirlər Komitəsinin səlahiyyətləri. Qərarların qəbul edilməsi mexanizmi və onların icrası. Nazirlər Komitəsi tərəfindən Nazirlərlərin nümayəndələri komitəsinin yaradılması (1952) və üzvləri. Komitənin vəzifə və səlahiyyətləri. Qəbul edilən qərarlar və onun hüquqi qüvvəsi.

Nazirlər Komitəsi tərəfindən "Avropa Komissarları" institutunun yaradılması (oktyabr, 1955). Komissarların hüquqi statusu və vəzifələri.

- **Parlament Assambleyası -** məşvərətçi nümayəndəli orqan kimi. Vəzifə və səlahiyyətləri (Nizamnamənin 24, 28,30, 33, 35-ci maddələri). Parlament Assambleyasının üzvləri. Onların seçilməsi, hüquqi statusu və vəzifələri.

Parlament Assambleyasının tərkibi, üzvlərinin sayı prinsipi və onların Assambleyada təmsil olunma formaları. Parlament Assambleyasında mövcud olan qruplar: Sosialistlər qrupu, Avropa Xalq Partiyası qrupu, Avropa demokratları qrupu, Liberallar qrupu, Demokratlar və islahatçılar.

Parlament Assambleyasının sessiyaları, onların keçirilmə qaydası və müddəti. (Nizamnamənin 32-ci maddəsi). Assambleyanın sessiyalarında müzakirə olunan məsələlər. Parlament Assambleyasının ixtisaslaşdırılmış komissiyaları və onların fəaliyyət istiqamətləri: siyasi məsələlər; insan hüquqları və hüquqi məsələlər; sosial məsələlər; səhiyyə və ailə məsələləri; mədəniyyət və təhsil; ətraf mühit; regional planlaşdırma və yerli hakimiyyət orqanları; elm və texnologiya; iqtisadiyyat və inkişaf məsələləri; kənd təsərrüfatı; miqrasiya, qaçqınlar, demoqrafiya; milli parlamentlər və ictimaiyyətlə əlaqələr; Avropa Şurasının üzvü olmayan Avropa dövlətləri ilə əlaqələr.

Parlament Assambleyasının ixtisaslaşdırılmış komitələri, daimi komitəsi və onların səlahiyyətləri. Parlament Assambleya-

sının sədri və onun müavinlərinin seçilməsi və Assambleya Bürosunun təşkili. Sədr və onun müavinlərinin səlahiyyətli və səsvermə hüququ. Assambleyanın digər hüquq və səlahiyyətləri.

- **Katiblik**. Məqsəd vəzifə və səlahiyyətləri. Baş Katib, onun seçilməsi və məsuliyyəti. Baş Katiblik və onun aparatı. İcraçı katib və onun funksiyaları.
- **Dövlət və hökumət başçılarının Zirvə toplantısı** - Avropa Şurasının Ali orqanı kimi. Avropa Şurasının Vyanada (1993) və Strasburqda (1997) keçirilən Zirvə toplantıları.
- **Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi.** Avropa Şurasının məsləhətverici orqanı kimi. Yaradılması (1994). Məqsəd və vəzifələri. İkipalatalı Konqresin tərkibi və onların seçilməsi prinsipi. Konqresin sədri və Bürosu.

Avropa Şurası və İnsan hüquqları: Avropa Şurası çərçivəsində insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyası. Nazirlər Komitəsinin 15 üzvü tərəfindən imzalanması (04 noyabr, 1950) və qüvvəyə minməsi (03 sentyabr, 1953).

İnsan hüquqları üzrə Avropa Komissiyası. Yaradılması (iyul, 1955). Məqsəd və vəzifələri. Komissiya üzvlərinin seçilməsi prinsipi, onların hüquq və vəzifələri. Avropa Konvensiyasına müvafiq olaraq Avropa Şurasının məhkəmə orqanı olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təsis edilməsi (sentyabr, 1958). Məhkəmənin vəzifə və səlahiyyətləri. Məhkəmə üzvlərinin seçilməsi prinsipi. Məhkəmənin qərarları və onun hüquqi qüvvəsi. Sədr, müavin və hakimlərin seçilməsi.

İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına 11 saylı əlavə protokolun imzalanması (11 may, 1994) və qüvvəyə minməsi (01 noyabr, 1998). Həmin protokola əsasən İnsan hüquqları üzrə Avropa Komissiyası və Avropa Məhkəməsini əvəz edən və daimi fəaliyyət göstərən vahid Avropa Məhkəməsinin yaradılması.



Avropa Şurasının işləmə mexanizmi. Avropa Şurasının rəmzləri (bayraq və himn). Avropa Şurasının rəsmi dilləri (ingilis və fransız). Parlament Assambleyasının işçi dilləri (alman, italyan). Avropa Şurasının büdcəsi. Təşkilatın qərargah mənzili (Strasburq).

**Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığı.** Avropa Şurasının Parlament Assambleyasına üzv olmayan dövlətlərlə əlaqələr Komitəsinin Dağlıq Qarabağa dair bəyanatı (05 fevral, 1992). Avropa Şurası Nazirlər Komitəsinin münaqişə ilə bağlı bəyanatları (12 mart, 1992; 16 aprel, 1993; 09 noyabr, 1993) və onların mahiyyəti.

Avropa Şurası Parlament Assambleyasının təşkilatın üzvü olmayan dövlətlərlə əlaqələr üzrə komissiyasının sədri Devid Atkinsonun Azərbaycana səfəri (14-17 noyabr, 1994). Parlament Assambleyasının münaqişəyə dair 1047 (1994) saylı qətnaməsi və onun mahiyyəti.

Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığının yeni mərhələsi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncamı (08 iyul, 1996) və onun əhəmiyyəti. Azərbaycan Respublikasının Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu alması (28 iyun, 1996). Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurasının Baş katibinə təşkilata tam hüquqlu üzv olmaq haqqında məktubu (13 iyul, 1946). Azərbaycan Respublikasının parlament nümayəndə heyətinin AŞ PA-nın iclaslarında iştirakı.

AŞ PA-nın Cənubi Qafqazda münaqişələrə dair 1119 (1997) saylı qətnaməsi (22 aprel, 1997). Qətnamənin Dağlıq Qarabağa dair bölməsi. Avropa Şurası üzvü olan ölkələrin dövlət və höku-

mət başçılarının Strasburqda keçirilən Zirvə toplantısında Azərbaycanın iştirakı (10-11 oktyabr, 1997). Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasına dair AŞ PA-nın məruzəçiləri J.Bomel və C. Klerfaytın və digər rəsmi şəxslərin Azərbaycana səfərləri (yanvar, 1998; 01 aprel, 1998; 15 iyun, 1998). Avropa Şurasının Baş katibi D. Tarşisin Azərbaycana səfəri (avqust, 1998). AŞ PA-nın sədri Lord Ressel Consonun Azərbaycana səfəri (15-18 sentyabr, 1999) və Avropa Şurasının digər rəsmi şəxslərinin Azərbaycana səfərləri çərçivəsində keçirilən görüşlər və aparılan danışıqlar (1999-2000).

Azərbaycan Respublikasının Avropa Şurasına tam-hüquqlu üzv olması və əməkdaşlığının genişlənməsi. Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanın bu təşkilata üzv olmağa dəvət edilməsinə dair 14 (2000) saylı qətnamə qəbul etməsi (07-09 noyabr, 2000) və onun mahiyyəti. Avropa Şurasının rəsmi şəxslərinin Azərbaycana səfərləri (yanvar, 2001).

Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının bu təşkilata tam-hüquqlu üzv qəbul edilməsinə dair qərarın qəbul edilməsi (17 yanvar, 2001); Azərbaycanın Avropa Şurasının tam hüquqlu üzvü kimi fəaliyyəti; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin iştirakı; Azərbaycan parlament nümayəndə heyətinin ilk dəfə olaraq AŞ PA-nın iclaslarında tam-hüquqlu üzv kimi iştirak etməsi (24-27 aprel, 2001) və nümayəndə heyətinin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hazırlanan "Ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" və "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı və s. sənədlərin AŞ PA-nın rəsmi sənədləri kimi yayılması (2001-2002). Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin başçısı cənab İlham Əliyevin AŞ PA-nın vitse-prezidenti, Büro üzvü seçilməsi (27 yanvar, 2003) və onun AŞ PA-dakı fəaliyyəti.



Avropa Şurası Baş katibi Valter Şvimmerin Azərbaycana səfəri (8 aprel, 2004); Azərbaycan Prezidenti İlham Əliyevin AŞ PA-nın yaz sessiyasındakı çıxışı (28-29 aprel 2004); 25 yanvar 2005-ci ildə AŞPA-nın qış hissəvi-sessiyasında "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416 (2005) saylı Qətnamə və 1690 (2005) saylı Tövsiyə; "Bakı Prosesi"; AŞPA Bürosunun 2011-ci il yanvarın 28-də keçirilmiş iclasında AŞPA-nın Dağlıq Qarabağ üzrə ad-hoc Komitəsinin fəaliyyətinin bərpasına dair qərar; Avropa Şurası Nazirlər Komitəsinin 2014-cü il mayın 6-da Vyanada keçirilmiş 124-cü Sessiyasında Avropa Şurası Nazirlər Komitəsinə Sədrliyin Azərbaycana keçməsi və Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə prioritet istiqamətlər; Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində qəbul edilmiş 60 beynəlxalq müqavilənin iştirakçısı kimi; Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığının genişlənməsi (2003-2015).

## Mövzu 9. AVROPA İTTİFAQI (Aİ; EC; EU) - 6 saat

### 9.1. Avropa İttifaqının yaradılması, məqsəd və vəzifələri

Avropa İttifaqının (1993-cü ilə kimi Avropa Birliyi adlanırdı) yaradılmasını zəruri edən amillər. Fransanın Milli Planlaşdırma İnstitutunun başçısı Jan Monne tərəfindən belə bir qurumun yaradılması təklifi. Fransanın Xarici İşlər Naziri Robert Şumanın sülhün bərqərar olması naminə Avropa Birliyinin yaradılması barədə ideyanı irəli sürməsi (09 may, 1950).

Avropa Birliyi iqtisadi əməkdaşlığın yeni hüquqi forması kimi. Fransa, Almaniya, İtaliya, Belçika, Hollandiya və Lüksemburq nümayəndələri tərəfindən Avropa Kömür və Polad Birliyinin (AKPB) təsis edilməsi haqqında müqavilənin imzalanması (18 aprel, 1951) ilə Avropa Birliyinin təməlinin qoyulması. AKPB-nin yaradılmasının məqsəd və vəzifələri.

Avropa İqtisadi Birliyi (AİB) və Atom Enerjisi üzrə Avropa Birliyinin yaradılması haqqında Romada imzalanmış müqavilələr. (25 mart, 1957). Həmin təşkilatların məqsəd və vəzifələri. Üç təşkilatın vahid orqanlarının yaradılması və Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında Brüssel müqaviləsi (1965). Birgə qərarların qəbul edilməsi barədə razılıq əldə edilməsinə dair Lüksemburq müqaviləsi (1971). Valyuta dəyişmə mexanizmlərini ümumiləşdirmək məqsədilə Avropa valyuta Sisteminin təsis edilməsi (13 mart, 1979). Danimarka, İrlandiya və Böyük Britaniyanın Avropa Birliyinə üzv olması (1973). Yunanıstanın Avropa Birliyinə qoşulması (1981). 1993-cü il yanvarın 1-ə kimi vahid daxili bazar yaratmaq və siyasi əməkdaşlığı genişləndirmək məqsədilə Vahid Ümumavropa Aktının imzalanması (1985). Portuqaliya və İspaniyanın Avropa Birliyinə qəbul olması ilə təşkilatın üzvlərinin sayının 12-yə çatması (01 yanvar, 1986). Avropa Parlamentinə Avropa Birliyinin qərarları üzərində veto qoymaq hüququnun verilməsi. 1993-cü ildən hər hansı iştirakçı dövlətdən alınmış viza əsasında vətəndaşların Avropa Birliyinin üzvü olan ölkələrin sərhədlərini keçmək hüququnu verən Şengen sazişi (1990).

Avropa Birliyinin üzvü olan 12 ölkənin dövlət başçıları tərəfindən Avropa İttifaqının yaradılması haqqında imzalanmış Maastrixt müqaviləsi (07 fevral, 1992). Avropa İttifaqının yaradılması haqqında imzalanan bu müqavilənin qüvvəyə minməsi (01 noyabr, 1993) və onun mahiyyəti.



17 protokol, eyni zamanda, 33 müraciətin əlavə edildiyi ümumi müdafiə və vahid valyuta iqtisadi ittifaqının yaradılmasını nəzərdə tutan müqavilənin həyata keçirilməsi prosesi. Frankfurt şəhərində Avropa Vlyuta İnstitutunun təsis edilməsi ilə yanaşı Avropa Mərkəzi Banklar Sisteminin və Avropa Mərkəzi Bankının nizamnaməsinin tərtib edilməsi (01 yanvar, 1994).

Avstriya, Finlandiya və İsveçin Avropa İttifaqına üzv olması və təşkilatın üzvlərinin sayının 15-ə çatması (01 yanvar, 1995). Turində keçirilən hökumətlərarası konfrans (1996).

Sosial sahədə əməkdaşlığın genişləndirilməsi və Avropa İttifaqı çərçivəsində əhalinin miqrasiyasının liberallaşdırılmasını nəzərdə tutan Amsterdam sazişi (1997) və onun qüvvəyə minməsi (may, 1999).

Avropa valyutalarının bir-birinə münasibətdə və təsdiq edilmiş ümumi pul vahidi olan AVRO-ya qarşı məzənnələrin təsdiq edilməsi (01 yanvar, 1999). Böyük Britaniya, Danimarka, İsveç və Yunanıstan istisna edilməklə, Avropa İttifaqının üzvü olan 11 dövlətin Avropa İqtisadi və Valyuta İttifaqına daxil olması.

Avropa İttifaqına yeni namizədlər. 2001-ci il yanvarın birindən AVRO-nun sərbəst dövriyyəyə buraxılması və 2002-ci il iyul ayınadək milli valyutaların tam olaraq dövriyyədən çıxarılmasının qərara alınması.

Maastrixt müqaviləsinə əsasən Avropa İttifaqının Ümumi Xarici və Təhlükəsizlik siyasətinin təməlinin qoyulması. Amsterdam müqaviləsinə əsasən isə Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndə vəzifəsinin təsis edilməsi.

Nitsada Avropa İttifaqının növbəti dövlətlərarası Konfransının keçirilməsi (dekabr, 2000). Avropa İttifaqı daxilində istahatlar. Təşkilatın bütün qurumlarında səsvermə prosedurasının dəyişdirilməsi və həmin qurumların üzvlərinin sayının artırılması təklifi.

Avropa İttifaqının genişlənməsi və daha 10 dövlətin - Macarıstan, Polşa, Slovakiya, Sloveniya, Çexiya, Malta, Kipr, Latviya, Litva və Estoniyanın təşkilata üzv qəbul olunması (01 may, 2004). 25 üzv dövləti və 450 milyon insanı əhatə edən Avropa İttifaqının yeni siyasi xətti - "Genişləndirilmiş Avropa" layihəsi və üzvülüyə namizəd dövlətlərlə münasibətlər. Avropa İttifaqının dünya siyasətində yeri və rolu. Avropa İttifaqı və Cənubi Qafqaz dövlətləri.

Avropa İttifaqının "Genişləndirilmiş Avropa" layihəsinin meydana çıxması (2003). Avropa İttifaqının Cənubi Qafqaz siyasəti və region ölkələri ilə münasibətləri. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunması (yanvar, 2004) və onun regiona, o cümlədən, Azərbaycana səfərləri (? fevral-22 mart, 2004). Avropa Parlamentinin Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində fəaliyyəti. Avropa Parlamentinin "Ermənistan-Azərbaycan münaqişəsi"nə dair mövqeyi.

Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfrans və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışında (17 mart, 2004) Ermənistanın təcavüzkar siyasətinin ifşası.

2004-cü il mayın 19-da Brüsseldə "Avropa İttifaqı və Azərbaycan - tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinq və Azərbaycanın dövlət başçısı İlham Əliyevin nitqində respublikamızın ərazi bütövlüyü məsələsi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri.

### 9.2. Avropa İttifaqının orqanları

- **Avropa Şurası** - qanunverici bir orqan kimi. Üzvləri. Şuranın dövlət və hökumət başçıları və müvafiq nazirlər səviyyəsində keçirilən iclasları. Şuranın aktlarının qəbul edilməsi prinsipləri. Səsvermə mexanizmi və üzv dövlətlərin səs kvotası.



- **Avropa Parlamenti.** Yaradılması prosesi. Deputatların seçilməsi və onların fəaliyyət müddəti. 80-ə qədər Avropa partiyasının 10 fraksiyada birləşməsi. Avropa Parlamentinin vəzifə və səlahiyyətləri. Parlament və onun orqanlarının fəaliyyət istiqamətləri. Rəyasət Heyəti, onun sədri və müavinləri. Daimi komitələrin fəaliyyəti. Parlament iclaslarının keçirilməsi qaydası. İşçi dilləri. Qərargah mənzili (Lüksemburq).
- **Avropa Komissiyası** - əsas icraedici və daimi fəaliyyət göstərən orqan kimi. Komissiyanın təşkili prosesi. Qəbul etdiyi qərarlar və onların hüquqi qüvvəsi. Komissiyanın sədri, müavinləri və üzvlərinin seçilməsi, vəzifə və səlahiyyətləri. Siyasi müşavir və məsləhətçilər. Direktorluq və başqa işçi orqanlar. Qərargah mənzili (Brüssel).
- **Şura.** Yaradılması (1974). Məqsəd, vəzifə və səlahiyyətləri. Qəbul etdiyi sənədlər: qərarlar, direktivlər, qərardadlar, tövsiyə və rəylər. Onların icra mexanizmi.
- **Avropa Məhkəməsi.** Təşkil edilməsi. Vəzifə və səlahiyyətləri. Hakimlər və müşavir qismində fəaliyyət göstərən baş prokurorların seçilməsi və onların səlahiyyət müddəti. Avropa Məhkəməsinin fəaliyyət istiqamətləri. Qəbul edilən qərarlar, onların hüquqi qüvvəsi.

12 hakimdən ibarət birinci instansiya məhkəməsinin yaradılması (1989). Onun qərarları və səlahiyyətləri. Xüsusi təftiş orqanı olan Auditorlar Məhkəməsi və onun səlahiyyətləri. Ombudsman institutu və onun fəaliyyəti. Avropa Məhkəməsinin qərargah mənzili (Lüksemburq).

Avropa İttifaqının digər qurumları: İqtisadi və Sosial Komitə; Avropa Auditorlar Məhkəməsi; Avropa Sərmaiyye Bankı; Av-

ropa İttifaqının Mərkəzi Bankı; Avropa Valyuta İnstitutu; Regionlar Komitəsi. Onların fəaliyyət istiqamətləri.

Avropa İttifaqında qərar qəbuletmə prosedurası, Avropa İttifaqı Nazirlər Şurasında səs vermə prosedurası, Avropa İttifaqına üzv qəbul etmə prosedurası.

Avropa İttifaqı çərçivsində fəaliyyət göstərən çoxsaylı yardımçı orqanlar:

- Ətraf mühitin mühafizəsi üzrə Avropa agentliyi (Kopenhagen);
- Avropa Təhsil Fondu (Turin);
- Avropa veterinar və fotosanitar müfəttişliyi (Dublin);
- Narkotiklərin yayılması üzərində nəzarət üzrə Avropa İdarəsi (Lissabon);
- Tibbi preparatların ekspertizası üzrə Avropa agentliyi (London);
- Səhiyyə və əməyin mühafizəsi üzrə Avropa agentliyi (Bilbao);
- Avropa Valyuta İnstitutu və Avropa Mərkəzi Bankı (Frankfurt);
- Şikayətlərə baxan palata daxil olmaqla daxili bazarın təkmilləşdirilməsi üzrə idarə (Madrid);
- Avropol narkotika ilə mübarizə üzrə bölmə ilə birlikdə (Haaqa);
- Peşə təhsilinə yardım üzrə Avropa Mərkəzi (Saloniki);
- Avropa İttifaqının tərcümə mərkəzi (Lüksemburq);
- Avropa patentlərinin apellyasiya məhkəməsi (Lüksemburq);

**Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı.** 1993-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Avropa İttifaqı ilə diplomatik münasibətlərinin qurulması. Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında ticarət, sərmaiyyə, iqtisadiyyat, qanunvericilik və mədəniyyət, immiqrasiya və qeyri-



qanuni ticarətin qarşısının alınması sahələrində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq Sazişinin imzalanması (1996) və bu saziş çərçivəsində fəaliyyət göstərən qurumlar: Əməkdaşlıq Şurası, onun məqsəd və vəzifələri, üzvləri və iclasların keçirilməsi qaydası. Əməkdaşlıq Komitəsi, onun məqsəd və vəzifələri, üzvləri və iclasları. Parlament Əməkdaşlıq Komitəsi, tərkibi, məqsədləri və fəaliyyəti. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin həyata keçirilməsi üçün ekspertlər qurupunun yaradılması və onun fəaliyyəti.

Avropa İttifaqı tərəfindən Azərbaycana yardım məqsədilə ayrılan vəsaitlər. Avropa İttifaqının Humanitar Yardım Ofisi (EKHO), Avropa İttifaqının Bərpa Proqramı (REHAB), Avropa İttifaqının Fövqəladə Yardım Proqramı (EKSAP), Avropa Komissiyası Ərzaq Təhlükəsizliyi Proqramı (FSP), Avropa Kənd Təsərrüfatı İdarəetmə və Zəmanət Fondu, Fövqəladə Humanitar Yardım Proqramları çərçivəsində Azərbaycana göstərilən yardımlar.

MDB dövlətlərinə Texniki Yardım Proqramının (TACİS) institusional, hüquqi və inzibati islahatlar, habelə özəl sektora dəstək və iqtisadiyyatın inkişafına yardım üzərində fəaliyyəti. TACİS proqramı çərçivəsində Azərbaycana göstərilən yardımlar. TACİS proqramına daxil olan ali təhsil müəssisələrinə və onların əməkdaşlarına yardım göstərən TEMPUS proqramı Avropa İttifaqının əməkdaşlıq proqramı kimi. Azərbaycanın bu proqrama qoşulması (1995). TEMPUS proqramının birgə Avropa layihələri çərçivəsində fəaliyyəti və Azərbaycanda bu proqramı maliyyələşdirən layihələr. Avropaya Dövlətlərarası Neft və Qaz Nəqliyyatı (İNOQEYT) proqramının məqsəd və fəaliyyəti. Azərbaycanda İNOQEYT proqramının tətbiqi və onun nəticələri.

Tarixi Böyük İpək Yolu və Avro-Asiya nəqliyyat dəhlizi. TACİS proqramı çərçivəsində Avropa İttifaqının dəstəyi ilə həya-

ta keçirilən Avropa-Qafqaz-Asiya Nəqliyyat dəhlizi-TRASECA layihəsi və onun mahiyyəti. TRASECA proqramının məqsədləri və fəaliyyət istiqamətləri. TRASECA proqramı və üzv dövlətlərin qarşısında duran ən mühüm məsələlər.

Avropa Parlamentinin "Ermənistan-Azərbaycan münaqişəsi"nə dair mövqeyi. Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfrans və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışında (17 mart, 2004) Ermənistanın təcavüzkar siyasətinin ifşası.

2004-cü il mayın 19-da Brüsseldə "Avropa İttifaqı və Azərbaycan - tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinq və Azərbaycanın dövlət başçısı İlham Əliyevin nitqində respublikamızın ərazi bütövlüyü məsələsi; Azərbaycan Avropa İttifaqı əməkdaşlığının perspektivləri. Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Birliyinin dəvəti ilə Brüsselə rəsmi səfəri və Azərbaycanla Avropa Birliyi arasında "Partnyorluq və əməkdaşlıq haqqında" protokolun imzalanması (17-20 may, 2004); "Yeni qonşuluq siyasəti" layihəsinin müzakirəsi. Avropa Komissiyasının prezidenti Xose Manuel Barrozunun Azərbaycana səfəri çərçivəsində "Cənub Qaz Dəhlizi" haqqında Birgə Bəyannamənin, Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma Memorandumunun və digər sənədlərin imzalanması (13 yanvar, 2011-ci il); Azərbaycan Respublikasının Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsündə iştirakı; Azərbaycan və Avropa İttifaqı arasında insan hüquqları və demokratikləşdirmə sahəsində əməkdaşlıq. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığının yeni mərhələsi (2015-5017).



## Mövzu 10. AVROPA İQTİSADİ TƏŞKİLATLARI - 6 saat

### 10.1. Avropa Azad Ticarət Birliyi (AATB; EFTA; EACT)

Stokholmda Avropa Azad Ticarət Birliyinin yaradılması haqqında Konvensiyanın imzalanması (1959) və qüvvəyə minməsi (1960). Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın orqanları:

- **AATB-nin Şurası**. Onun üzvləri, vəzifələri və qərarların qəbul edilməsi qaydası, onların hüquqi qüvvəsi. Şuranın iclaslarının keçirilməsi qaydası və fəaliyyəti;
- **Komitələr**. Məqsəd və vəzifələri. Müxtəlif sahələr üzrə bölgüsü. Fəaliyyət istiqamətləri;
- **Ekspertlər qrupu.** Məqsəd və vəzifələri;
- **Katiblik.** Vəzifə və səlahiyyətləri. Fəliyyət istiqamətləri. Müxtəlif sahələr üzrə bölmələri.

Təşkilatın üzvü olan dövlətlərin Avropa ittifaqı və onun üzv dövlətləri ilə Avropa İqtisadi Məkanı (AİM) yaratmaq barədə müqavilə bağlaması (1992). Ümumi bazarın yaradılması. İsveçrənin həmin müqaviləni ratifikasiya etməməsi. Müqavilənin mahiyyəti.

Avropa İqtisadi Məkanının strukturu:

- AİM-nın Şurası. Onun üzvləri, vəzifələri və qərarların qəbul edilməsi
- AİM-nın birgə Komitəsi. Üzvləri, vəzifələri və fəaliyyəti
- AİM-nın Məsləhətverici Komitəsi. Üzvləri və fəaliyyəti
- AİM-nın birgə Parlament Komitəsi. Fəaliyyəti.

Avropa Azad Ticarət Birliyi üzv dövlətlərinin yaratdığı digər komitələr və onların fəaliyyəti:

- AATB-nin Nəzarət komitəsi;
- AATB-nin Məhkəməsi;
- AATB-nin üzvü olan dövlətlərin daimi Komitəsi.

Təşkilatın qərargahı (Cenevrə).

### 10.2. Avropa Patent Təşkilatı (APT; EPO; EПA)

Avropada Patentlərin verilməsi haqqında Konvensiyanın imzalanması (1973), ratifikasiya edilməsi (1977) və bunun əsasında Avropa Patent Təşkilatının yaradılması. Konvensiyanın mahiyyəti. Avropa Patent sistemi. Onun məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Avropa patentinin sahibinə patent müdafiəsinin verilməsi. Avropa Patent Təşkilatının məqsəd və vəzifələri. Təşkilatın orqanları:

- **Avropa Patent İdarəsi (APİ)**. Vəzifə və səlahiyyətləri. Fəaliyyət istiqamətləri. İdarənin prezidenti və onun vəzifə səlahiyyətləri. İdarənin Münhen və Haaqa şöbələri. APİ-nin baş idarələri: axtarış, ekspertiza, şikayət, beynəlxalq hüquq və inzibati idarələr.
- **İnzibati Şura** - qanunverici orqan kimi. Onun üzvləri. İclasların keçirilməsi qaydası. Büdcənin təsdiqi. Konvensiyada dəyişiklik edilməsi hüququ.

Avropa Patentlərinin verilməsi müddəti və mərhələləri:

- Sifarişin verilməsi, onun formal yoxlanması, patent axtarışı, sifarişin nəşri və patent axtarışının nəticələri (Haaqa-Berlin mərhələsi);
- Əhatəli ekspertiza- patentin verilməsi və ya ondan imtina (Münhen);
- Patentin verilməsinə üçüncü tərəfin etirazı, birinci instansiyanın qərarlarından şikayət vermək, onların yoxlanması və son qərarın qəbulu.

Avropa Patent Təşkilatının maliyyələşdirilməsi. Təşkilatın işçi dilləri. Qərargah mənzili (Münhen).

### 10.3. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB; EBRD; EБPP)

XX əsrin 80-cı illərinin sonu- 90-cı illərinin əvvəllərində Mərkəzi və Şərqi Avropa ölkələrində sosial-siyasi dəyişikliklər.



Dünya sosializm sisteminin süqutundan sonra həmin sistemdən ayrılmış ölkələrə sosial-iqtisadi yardımların zəruriliyi.

Avropa Yenidənqurma və İnkişaf Bankının yaradılması haqqında sazişin imzalanması (1990). Bankın məqsəd və vəzifələri. Üzvülüyə qəbul şərtləri. Təşkilatın fəaliyyət istiqamətləri.

Avropa Yenidənqurma və İnkişaf Bankının orqanları:

- **İdarəçilər Şurası.** Vəzifə və səlahiyyətləri. Tərkibi və iclasların keçirilməsi.
- **Direktorluq.** Üzvləri, onların seçilməsi prinsipi. Məqsəd və vəzifələri. Fəaliyyət sahələri və səlahiyyətləri.
- **Prezident.** Seçilməsi prinsipi. Vəzifə, hüquq və səlahiyyətləri.
- **Vitse-prezident.** Və onun müavinləri.

AYİB-nin fəaliyyət göstərən 9 idarəsi: Bank əməliyyatları, maliyyə, layihə ekspertizası, hüquq məsələləri, Baş iqtisadçı idarəsi, kommunikasiya, şəxsi heyət və müdiriyyət. Vitse-prezidentin rəhbərlik etdiyi idarələr. Bank əməliyyatları idarəsinin "Şimal ölkələri" və "Cənub ölkələri" adlı regional şöbələri.

- **Ətraf mühit məsələləri üzrə Məsləhətverici Şura.** Məqsəd və vəzifələri. Fəaliyyət sahələri.

AYİB-nin əsas fəaliyyət istiqamətləri. Mərkəzi və Şərqi Avropa ölkələrində demokratik inkişaf və bazar iqtisadiyyatı yolunun seçilməsi. AYİB-nın xətti ilə edilən maddi yardımların təyinatı. Həmin ölkələrin dünya iqtisadiyyatına inteqrasiyası və onun vasitələri. Kapital bazarının formalaşdırılması yolları və sərmaiyyə qoyuluşu. AYİB-nin maliyyə mənbələri. Qərargah mənzili (London).

Azərbaycan Respublikasının Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı. Təşkilatın Azərbaycana humanitar və maliyyə yardımları.

## 10.4. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT; ECO; OEC)

Türkiyə, İran və Pakistan arasında bağlanmış müqavilə əsasında İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması (1985). Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Əfqanıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın təşkilata daxil olması

(noyabr, 1992). Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın əsas orqanları:

- **Daimi Nümayəndələr Şurası -** əsas icraçı və fəaliyyətdə olan bir orqan kimi. Onun üzvləri, vəzifə və səlahiyyətləri. İclasları və əsas fəaliyyət istiqamətləri;
- **Regional Planlaşdırma Şurası,** onun üzvləri, funksiya və səlahiyyətləri. Fəaliyyəti;
- **Nazirlər Şurası** – təşkilatın ali orqanı kimi. Üzvləri. İclaslarının keçirilməsi qaydaları. Onun vəzifə, səlahiyyət və fəaliyyət istiqamətləri;
- **Direktorluqlar** – Onların müxtəlif sahələr üzrə fəaliyyət istiqamətləri;
- **Katiblik.** Onun funksiya və səlahiyyətləri.

Təşkilatın həyata keçirdiyi proqram və layihələr. Təşkilatın müxtəlif sahələr üzrə fəaliyyət göstərən qurumları. İƏT-in Ticarət Nazirlərinin I Toplantısı (06 mart, 2000) və Düşənbə şəhərində İƏT-in VIII Zirvə Toplantısında (4-6 oktyabr, 2004) imzalanan Bəyannamə və onun mahiyyəti. "İƏT-in Ticarət Əməkdaşlığı üzrə Çərçivə Sazişi"nin imzalanması. İƏT-in üzv dövlətlərinin Ticarət Nazirlərinin II Toplantısı (15-17 iyul, 2003). "İƏT"in Ticarət Sazişinin (ECOTA) imzalanması və onun mahiyyəti. "İƏT-in Tranzit Ticarət haqqında Saziş" (15 mart, 1995) və onun məqsədi. Təşkilatın qərargah mənzili (İslamabad), Katiblik (Tehran).

**Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı.** Azərbaycanın Təşkilata üzv qəbul edilməsi.



İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə keçirilən ikinci görüşü. Dövlət başçıları tərəfindən Ermənistanın Azərbaycana təcavüzkarlığını pisləyən bəyanatın qəbul edilməsi (06-07 iyun, 1993). Qəbul edilən sənədin mahiyyəti.

Azərbaycan Respublikasının İslamabad görüşünün nəticəsi kimi tranzit ticarət və təşkilata üzv olan dövlətlərin sahibkarları üçün viza prosedurlarının yüngülləşdirilməsi haqqında sazişlərə qoşulması (1995).

Almatı sammitində irəli sürülən tranzit nəqliyyat üzrə Cenevrə Sazişinin (1998) Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilməsi. Qaçaqmalçılıq və gömrük hüquq pozuntuları ilə mübarizə sahəsində üzv dövlətlər arasında qarşılıqlı anlaşma haqqında Memorandum, narkotik və psikotrop maddələrin qanunsuz istehsalında istifadə edilən xammalları və beynəlxalq ticarətin monitorinqi üzrə tədbirlərin gücləndirilməsi haqqında Qətnamə və Təşkilatın Təhsil İnstitutunun Nizamnaməsinin imzalanması.

İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının Azərbaycan Respublikasının sədrliyi ilə Bakıda keçirilən IX iclası (18 - 21 may, 1999). Bakı Kommunikesinin imzalanması.

İƏT-in müxtəlif sahələr üzrə imzaladığı Sazişlər və onların Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməsi.

## 10.5. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT; OECD; OЭCP)

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təsis edilməsi haqqında Konvensiyanın imzalanması (1960) və ratifikasiya edildikdən sonra təşkilatın yaradılması (30 sentyabr, 1961). Təşkilatın məqsəd, vəzifə və fəaliyyət istiqamətləri. Təşkilatın orqanları:

- **Şura -** təşkilatın ali bir orqanı kimi. Şuranın üzvləri, baş

katib və onun funksiyaları. Şuranın həftədə bir dəfə səfirlər səviyyəsində, ildə bir dəfə nazirlər səviyyəsində keçirilən toplantıları. Şuranın qəbul etdiyi sənədlər (qərarlar və tövsiyələr) və onların qəbul olunması prinsipi.

- **İcraiyyə Komitəsi,** onun üzvlərinin seçilməsi və səlahiyyət müddəti. Qurumun məqsəd və vəzifələri.
- **Komitələr, işçi qruplar, ekspert komissiyaları.** Sayı 200-ə yaxın olan bu qurumların müxtəlif sahələr üzrə fəaliyyət istiqamətləri.
- **İnkişafa yardım komitəsi -** təşkilatın mərkəz orqanı kimi. 21 üzv dövlət və Avropa Komissiyasının nümayəndələrindən ibarət üzvləri. Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondu müşahidəçi statusunda. Komitənin əsas vəzifəsi və fəaliyyəti.
- **Beynəlxalq Katiblik.** Baş katib, onun müavinləri, köməkçisi və onların vəzifələri. Departamentlər. Onların müxtəlif sahələr üzrə fəaliyyət istiqamətləri.

**Keçid iqtisadiyyatı dövrünü yaşayan Avropa dövlətləri ilə Əməkdaşlıq Mərkəzi.** Yaradılması (1990). Məqsəd və vəzifələri. Avropa İttifaqının, Avropa Komissiyasının təşkilatla əməkdaşlığı.

Təşkilata daxil olan müstəqil muxtar qurumlar. Avtonom və yarıavtonom orqanlar:

- **Beynəlxalq Enerji Agentliyi (BEA; IEA; МЭА).** Enerji məsələlərinin müzakirəsi üçün forum kimi. Yaradılması (1974). Məqsəd və vəzifələri. Avropa Komissiyasının təşkilatın işində iştirakı. Qurumun orqanları:

- İnzibati Şura. Onun üzvləri, məqsəd və vəzifələri.
- Daimi işçi qruplar. Səlahiyyətləri və fəaliyyət istiqamətləri.
- Katiblik. Vəzifə və səlahiyyətləri. İcraçı direktorun təyin edilməsi.



Beynəlxalq Enerji Agentliyinin müntəzəm nəşrləri. Qərargahı (Paris).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvləri. Rəsmi dilləri (ingilis, fransız). Təşkilatın analitik statistik materialları, nəşri və nəşriyyat mərkəzləri (Bonn, Tokio, Vaşinqton). Qərargah mənzili (Paris).

- **Atom Enerjisi üzrə Agentlik (AEA; AEN; АЯЭ).** Atom Enerjisi üzrə Avropa Agentliyinə qeyri Avropa dövlətlərinin üzv qəbul olunması (1958) və qurumun atom enerjisi üzrə Agentlik adlanması. Agentliyin məqsədləri və əsas fəaliyyət istiqamətləri. Qurumun adları:

- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şurası. Məqsəd və vəzifələri.
- Atom Enerjisi üzrə İcraiyyə Komitəsi. Vəzifələri və fəaliyyəti.
- Komitə və işçi qruplar. Müxtəlif sahələr üzrə əsas fəaliyyət istiqamətləri.

- **Təhsil sahəsində Tədqiqatlar və Yeniliklər Mərkəzi (TTYM; CERI; ЦИНО).** Təşkilatın yaradılması (1968). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri.
- **İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişaf Mərkəzi.** Yaradılması (1962). Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Üzvləri.

### 10.6. Benilüks İqtisadi İttifaqı (BİI; BEU; БЭС)

Benilüks İqtisadi İttifaqının yaradılması haqqında müqavilələrin imzalanması (1958) və Belçika, Niderland və Lüksemburq arasında gömrük sahəsində normaların kodifikasiya olunması. Hər üç dövlətin ərazisində insanların azad hərəkəti və sərhəd nəzarətinə dair müqavilənin imzalanması (1960). Sərhəd nəzarətinin tam ləğv edilməsi və Benilüks ərazisinin gömrük qanunvericiliyi-

nin unifikasiyası haqqında Konvensiya (1969) və əmtəə mübadiləsi haqqında müqavilənin imzalanması (1984). İttifaqın yaradılması haqqında müqavilənin qüvvəyə minməsi (1990). Təşkilatın məqsəd və vəzifələri. İitifaqın orqanları:

- **Nazirlər Komitəsi** – təşkilatın ali orqanı kimi. Üzvləri. Vəzifə və səlahiyyətləri. İclasların keçirilmə qaydası və qərarları.
- **İqtisadi İttifaq Şurası.** Məqsəd və vəzifələri. Fəaliyyəti.
- **İşçi qruplar.** Yaradılması. Tərkibi. Qəbul etdiyi qərarlar və onların hüquqi qüvvəsi.
- **Komissiya və xüsusi komitələr.** Yaradılması. Onların sahələr üzrə fəaliyyət istiqamətləri.
- **Baş katiblik.** Onun kollegiyası. Baş katib və onun müavinləri. Onların vəzifə və səlahiyyətləri.
- **Parlamentlərarası Məsləhətverici Şura.** Üzvləri və onların seçilməsi prinsipi. Vəzifə və səlahiyyətləri.
- **İqtisadi və sosial məsələlər üzrə Məsləhətverici Şura.** Yaradılması və nümayəndələrin seçilməsi prinsipi.
- **Arbitraj kollegiyası.** Məqsəd və vəzifələri. Səlahiyyətləri və fəaliyyəti.
- **Məhkəmə Palatası.** Vəzifə və səlahiyyətləri. Fəaliyyət istiqamətləri.

Təşkilatın rəsmi dilləri. Qərargah mənzili (Brüssel).

## Mövzu 11. AVROPA REGİONAL TƏŞKİLATLARI - 6 saat

### 11.1. Reyndə Gəmiçilik üzrə Mərkəzi Komissiya (RGMK; CCNR; ЦКСР)

Vyana Konqresinin Yekun Aktına müvafiq olaraq Reyndə Gəmiçilik üzrə Mərkəzi Komissiyanın yaradılması. 1919-cu il Versal müqaviləsinə əsasən komissiyanın tərkibinə daxil olan Böyük Britaniya və İtaliyanın Komissiyadan çıxması (1944). Komissiyanın hazırki fəaliyyətinə dair imzalanan saziş (20 noyabr, 1963).



Komissiyanın məqsədləri. Komissiyanın quruluşu:

- **Mərkəzi Komissiya və daimi komitələr.** Mərkəzi komissiyanın təşkil edilməsi. Sədr, onun vəzifə və səlahiyyətləri. Mərkəzi Komissiyanın toplantılarının keçirilməsi qaydası. Qərarların qəbul edilməsi prinsipi və onların hüquqi qüvvəsi. Mərkəzi komissiyanın səlahiyyətləri və fəaliyyət istiqamətləri.
- **Katiblik.** Funksiya və səlahiyyətləri. Fəaliyyəti.
- **Reyndə Gəmiçilik işləri üzrə Məhkəmə Palataları.** Vəzifə və səlahiyyətləri.

Komissiyanın üzvləri: Almaniya, Belçika, İsveçrə, Niderland və Fransa. Komissiyanın qərargahı (Strasburq).

### 11.2. Dunay Komissiyası (DK; DC; ДК)

Dünyada gəmiçilik rejimi haqqında konvensiyanın qüvvəyə minməsi (1948). Paris Konvensiyasına (1921) əsasən fəaliyyət göstərən Avropa Dunay Komissiyasının buraxılması və Dunay Komissiyasının yaradılması (1949). Komissiyanın məqsəd və vəzifələri.

Komissiyanın quruluşu:

- **Komissiyanın sədri**, müavini və onların seçilməsi müddəti. Komissiyanın funksiya və səlahiyyətləri.
- **Katiblik.** Direktor və onun fəaliyyəti. Katibliyin şöbələri.

Komissiyanın üzvləri: Avstriya, Bolqarıstan, Macarıstan, Rusiya, Rumıniya, Slovakiya, Ukrayna, Serbiya və Çernoqoriya. Komissiyanın rəsmi dilləri: rus, fransız. Qərargahı (Budapeşt).

### 11.3. Baltik Dənizi Ölkələri Şurası (BDÖŞ; CBSS; СГБМ)

Almaniya və Danimarkanın təşəbbüsü ilə Baltik regionunun əlaqələndirilməsi orqanı kimi - Baltik Dənizi Ölkələri Şurasının

yaradılması (1991). Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın orqanları:

➢ **Xarici işlər Nazirləri Şurası** – rəhbər orqan kimi. Toplantıları və fəaliyyəti;

➢ **Yüksək Vəzifəli Şəxslər Komitəsi.** Vəzifə və səlahiyyətləri;

➢ **Demokratik İnstitutlar və İnsan hüquqları üzrə komissar,** funksiya və səlahiyyətləri;

➢ **Xüsusi məsələlər üzrə işçi qrup.** Vəzifələri. Müxtəlif sahələr üzrə fəaliyyəti.

Baltik Dənizi Ölkələri Şurasında əməkdaşlığın əsas istiqamətləri: beynəlxalq təhlükəsizlik, insan hüquqları, yeni demokratik institutlara yardım, iqtisadi və texniki köməklik, səhiyyə və humanitar problemlər, ətraf mühitin mühafizəsi və energetika, mədəniyyət və təhsil, turizm və informasiya, nəqliyyat və rabitə.

Təşkilatın üzvləri: Almaniya, Danimarka, Norveç, İsveç, Polşa, Finlandiya, Rusiya, Latviya, Litva, Estoniya.

### 11.4. Şimal Əməkdaşlığı (ŞƏ; NC; CC)

Şimal ölkələrinin əməkdaşlığını həyata keçirən qurumların yaradılması. 1952-ci il Nizamnaməsinə müvafiq olaraq Şimal Şurasının yaradılması (1952) və Helsinki konvensiyasına əsasən statusunun dəyişdirilməsi (1962). Həmin konvensiyaya əsasən Nazirlərin Şimal Şurasının yaradılması (1971).

Təşkilatın məqsədləri, əməkdaşlığın müxtəlif sahələri üzrə fəaliyyət istiqamətləri. Üzv dövlətlər (Danimarka, İslandiya, İsveç, Norveç və Finlandiya) arasında imzalanan sazişlər. Təşkilatın orqanları:

➢ **Şimal Şurası. Tərkibi.** Plenar məclis və onun üzvlərinin təyin edilməsi. Milli nümayəndələr və onların üzvləri. Plenar məclisin vəzifə və səlahiyyətləri. Daimi komitələr və onların fəaliyyət



istiqamətləri. Şimal Şurasının katibliyinin qərargahı (Stokholm).

➢ **Nazirlərin Şimal Şurası.** Üzvlərin təyin edilməsi. Şuraya sədrlik proseduru. Baş nazirlər, onların vəzifə və səlahiyyətləri. Milli nazirlərin təyin edilməsi. Nazirlər Şurasının qərarları və onların təsdiqi. Nazirlərin Şimal Şurasının qərargahı (Kopenhagen).

➢ **Katiblik.** Baş katib və onun vəzifələri. Katibliyin departamentləri: beynəlxalq, iqtisadiyyat və inzibati, 1-ci, 2-ci, 3-cü və informasiya departamentlərinin fəaliyyəti. Katibliyin funksiya və səlahiyyətləri.

Şimal əməkdaşlığının institutları. Şimal İnvestisiya Bankının (Helsinki) məqsədləri və onun fəaliyyəti. Şimal Layihə Fondu (Helsinki) və onun məqsədləri.

### 11.5. Qara Dəniz İqtisadi Əməkdaşlığı (QİƏT; BSEC; ЧЕС)

Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatının yaradılması haqqında İstanbul bəyannaməsinin imzalanması (25 iyun, 1992). Bosfor bəyanatı və onun mahiyyəti. Yaltada təşkilatın Nizamnaməsinin imzalanması (05 iyun, 1998) və sənədin qüvvəyə minməsi (1999). Qurumun iqtisadi təşkilata çevrilməsi. Təşkilatın məqsədləri. QİƏT-nın təşkilati orqanları:

➢ **Dövlət və hökümət başçılarının toplantısı.** Məqsəd və vəzifələri.

➢ **Xarici İşlər Nazirləri Şurası** – təşkilatın ali orqanı kimi. Vəzifə və səlahiyyətləri. İclasların keçirilmə qaydası.

➢ **Sədr.** Onun funksiya, səlahiyyətləri və sədrlik müddəti.

➢ **Parlament Assambleyası.** Yaradılması (1993). Məqsədləri. Üzvlərin təyin edilməsi və onların fəaliyyəti. İclasların keçirilmə qaydası. Parlament Assambleyasının işçi orqanları və onların fəaliyyət istiqamətləri.

➢ **Yüksək vəzifəli Şəxslər Komitəsi.** Onun məqsəd və vəzifələri. Səlahiyyətləri və fəaliyyət istiqamətləri.

➢ **Beynəlxalq Katiblik.** Funksiyaları. Katibliyin əməkdaşlarının vəzifələri. Baş katib, onun vəzifə və səlahiyyətləri müddəti.

➢ **İşçi qruplar.** Onların sahələr üzrə fəaliyyət istiqamətləri.

➢ **Qara Dəniz Ticarət və İnkişaf Bankı.** Onun yaradılması haqqında Tbilisidə sazişin imzalanması (30 iyun, 1994). Bankın qərargah mənzili (Saloniki).

➢ **QİƏT-nın Biznes Şurası.** Yaradılması (iyun, 1992). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri.

➢ **Təşkilatın Üçlük Sistemi.** Və onun üzvləri. Vəzifələri.

QİƏT-nın üzvləri: Azərbaycan, Albaniya, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Rumıniya, Türkiyə, Rusiya, Ukrayna, Moldova, Ermənistan. Təşkilatın tədbirlərində müşahidəçi dövlət statusu ilə iştirak edən dövlətlər.

Təşkilatın 1995-ci il 14 aprel, 1995-ci il 1 noyabr, 1996-cı il 25 oktyabr tarixli XİN-nin iclaslarının qərarlarına əsasən Beynəlq Qara Dəniz Tədqiqatlar Mərkəzinin yaradılması (dekabr, 1998).

QİƏT-na BMT yanında Müşahidəçi Statusunun verilməsi (08 oktyabr 1999). BMT tərəfindən QİƏT ilə əməkdaşlığa dair qətnamənin qəbul edilməsi (16 dekabr, 2000).

Təşkilatın Statistik göstəricilər və iqtisadi informasiya üzrə Koordinasiya mərkəzi və Regional energetika mərkəzi. Onların fəaliyyəti. QİƏT çərçivəsində yaradılan bir sıra qurumlar və onların fəaliyyəti: Layihə İnkişaf Fondu, Milli Ekspertlər Qrupu və s. Təşkilatın qərargah mənzili (İstanbul).

**Azərbaycan Respublikasının QİƏT ilə əməkdaşlığı.** Azərbaycanın İstanbul Bəyannaməsini imzalaması (iyun, 1992) və təşkilatın Zirvə toplantılarında və digər qurumların işində iştirakı.

Azərbaycan QİƏT Parlament Assambleyasının üzvü kimi



Bakıda Parlament Assambleyasının iqtisadiyyat, ticarət, texniki və ekoloji məsələlər üzrə komitəsinin 10-cu iclasının keçirilməsi (18-19 mart, 1998).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Qara dəniz İnkişaf Bankının təsis edilməsi haqqında sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi haqqında fərman imzalaması (05 fevral, 1999).

Azərbaycanın QİƏT-nın Xarici İşlər Nazirləri Şurasına sədrliyi (aprel, 2003 – oktyabr, 2003; noyabr, 2003 – aprel, 2004). Azərbaycanın QİƏT-nın Nəqliyyat və Enerji üzrə işçi qruplarında əlaqələndirici kimi (may, 2003 – may, 2005).

Azərbaycanın QİƏT ilə əməkdaşlığının genişlənməsi və perspektivləri (2005-2015).

### 11.6. Qərbi Avropa İttifaqı (QAİ; WEU; ЗЕС)

Böyük Britaniya, Belçika, Niderland, Fransa, Lüksemburq arasında iqtisadi, sosial, mədəni əməkdaşlıq və kollektiv özünümüdafiə haqqında Brüssel müqaviləsinin imzalanması (1948). Brüssel müqaviləsində dəyişiklik edilməklə Paris sazişinin imzalanması (1954) və ratifikasiya edilməsi (1955). Qərbi Avropa İttifaqının yaradılması. İtaliya və Almaniyanın da Brüssel paktına qoşulması. Təşkilatın məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərbi Avropa ittifaqının orqanları:

➢ **Qərbi Avropa İttifaqının Nazirlər Şurası.** Təşkilatın ali orqanı kimi. Tərkibi, vəzifələri və Şuranın iclaslarının keçirilməsi qaydası. Şuraya sədrlik və onun fəaliyyət müddəti. Şuranın səlahiyyətləri.

➢ **Daimi Şura.** Üzvləri və vəzifələri. İclaslara sədrlik və onların keçirilməsi qaydası.

➢ **Şuranın işçi qrupu.** Vəzifə və səlahiyyətləri.

➢ **Üzv dövlətlərin baş qərargah rəisləri.** Məqsəd və vəzifələri

➢ **Planlaşdırma üzrə qərargah.** Səlahiyyətləri və fəaliyyəti

➢ **İşçi qruplar.** Vəzifə və səlahiyyətləri. Fəaliyyət istiqamətləri.

➢ **Qərbi Avropa İttifaqının Assambleyası.** Üzvləri. İclasların keçirilməsi və fəaliyyəti. Sədr və müavinlərdən ibarət Büronun seçilməsi. Assambleyanın sədrlər komitəsi və müxtəlif məsələlər üzrə daimi komitələri.

➢ **Katiblik.** Onun vəzifə və səlahiyyətləri.

Təşkilatın işçi dilləri. Qərargah mənzili (Brüssel). Assambleya (Paris).

## Mövzu 12: AVROPA ELMİ-TƏDQİQAT TƏŞKİLATLARI (İNSTİTUTLARI) - 6 saat

### 12.1. Atlantika Beynəlxalq Münasibətlər İnstitutu (ABMİ; AIIA; AИMO)

Parisdə Atlantika Beynəlxalq Münasibətlər İnstitutunun əsasının qoyulması (1960). Onun qeyri-dövlətlərarası beynəlxalq təşkilat statusu. Əvvəllər Atlantika İnstitutu (1972-ci ilə kimi). İnstitutun məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri.

➢ **İdarəçilər Şurası.** İnstitutun rəhbər orqanı kimi. Onun sessiyaları. Şuranın komitələri: icraedici, xarici siyasət, maliyyə və iqtisadiyyat. Onların vəzifələri.

İnstitutda fəaliyyət göstərən tədqiqatçılar, aparılan tədqiqatlar və onların əsas fəaliyyət istiqamətləri. İnstitutun NATO və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı. İnstitutun mətbu orqanı. Rəsmi dilləri (ingilis, fransız). Qərargah mənzili (Paris).

### 12.2. Yeni Tarix Avropa Assosiasiyası

Strasburqda bir qrup fransız tarixçiləri tərəfindən Yeni Tarix



Avropa Assosiasiyasının yaradılması (1966). Assosiasiyanın məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Assosiasiyanın üzvləri, onların milli və beynəlxalq təşkilatlarla əlaqələri. Assosiasiyanın quruluşu:

➢ **Assambleya** - Assosiasiyasının ali orqanı kimi. Assosiasiyaya rəhbərlik. Büro, onun funksiyaları və iclasları. İclasların mövzusu. Assosiasiyanın əsas tədqiqat obyektləri.

Assosiasiyanın nəşrləri. Rəsmi dili (fransız). Qərargah mənzili (Strasburq).

### 12.3. Siyasi Tədqiqatların Avropa Konsorsiumu

Qərbi Avropa ölkələrinin əsas siyasi elm mərkəzlərini birləşdirən bir təşkilat kimi. Münhendə 8 Qərbi Avropa ali məktəb və elm müəssisəsinin nümayəndələri tərəfindən Konsorsiumun yaradılması (1970). Təşkilatın məqsəd və vəzifələri. Konsorsiumun üzvləri. Konsorsiumun quruluşu:

➢ **Şura** - Təşkilatın ali orqanı kimi. Onun iclasları və fəaliyyət istiqamətləri.

➢ **İcraiyyə Komitəsi,** onun iclaslarının keçirilməsi qaydası. Sədr və icraçı direktorun seçilməsi. Onların vəzifə və səlahiyyətləri.

Konsorsiumun məşğul olduğu əsas tədqiqat obyektləri. Təşkilatın rəsmi dili (ingilis). Qərargah mənzili (Esseyk Universiteti, Böyük Britaniya).

### 12.4. Sülh Problemlərinin Tədqiqi üzrə Stokholm Beynəlxalq İnstitutu

Sülh Problemlərinin Tədqiqi üzrə Stokholm Beynəlxalq İnstitutunun əsasının qoyulması. İsveçin neytrallığının 150 illiyi şərəfinə İsveç Parlamenti və hökümətinin qərarına əsasən Stokholmda sülh problemləri və münaqişələrin tədqiqi üzrə Beynəlxalq Stokholm İnstitutunun yaradılması (1966).

İnstitutun fəaliyyət istiqamətləri və tədqiqat obyektləri. İnstitutun əsas vəzifəsi, onun beynəlxalq statusu və üzvləri. İnstitutun quruluşu:

➢ **İdarəçilər Şurası** - institutun rəhbər orqanı kimi. Şuranın üzvləri: sədri, İnstitutun direktoru və üzvləri. Sədr, direktor və Şuranın üzvlərinin İsveç höküməti tərəfindən təyin olunmasıvə onların səlahiyyət müddəti. İdarəçilər Şurasının toplantıları;

➢ **Elmi Şura** - institutun Məsləhətverici orqanı kimi. Onun üzvləri və onların səlahiyyət müddəti. Elmi Şuranın toplantıları.

İnstitutda beynəlxalq münasibətlərin müxtəlif istiqamətləri üzrə aparılan tədqiqatlar və tədqiqatçıların işə dəvət olunma müddəti. Beynəlxalq simpoziumların təşkili. İnstitutun əsas nəşri. Rəsmi dili (ingilis). Qərargah mənzili (Stokholm).

### 12.5. Avropa Universiteti İnstitutu (AUİ; EUI; ИЕУ)

Avropa İttifaqının əsasını qoyan dövlətlər tərəfindən Avropa Universiteti İnstitutunun yaradılması haqqında sazişin imzalanması (1972) və İnstitutun rəsmi açılışı (1976). İnstitutun məqsədi və vəzifələri.

Təşkilatın akademik quruluşu:

➢ **Şöbələr** və onların fəaliyyəti. Tarix və mədəniyyət tarixi şöbəsi, İqtisadi elmlər şöbəsi, Hüquqi elmlər şöbəsi, Siyasi və sosial elmlər şöbəsi. Robert Şuman mərkəzi, Avropa Cəmiyyəti Problemləri mərkəzi. Avropa Forumu və onların əsas fəaliyyət istiqamətləri.

İnstitutun rəhbərliyi. Əsas rəhbər orqanlar - Ali Şura; Prezident; Akademik Şura: professor-müəllim heyəti; Elmi Şura

➢ **Ali Şura.** Onun tərkibi, vəzifə və səlahiyyətləri.

➢ **Prezident.** İnstitutun rəhbəri kimi. Onun vəzifə və səlahiyyətləri.



➢ **Elmi Şura.** Üzvləri və onların əsas fəaliyyət istiqamətləri.

İnstitut tərəfindən tədqiqatçıların qəbulu prinsipi.Təşkilatın üzvləri: Almaniya, Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, İrlandiya, İspaniya, İtaliya, Niderland, Portuqaliya, Fransa və Lüksemburq. Qərargah mənzili (İtaliya).

### 12.6. Avropa Mədəniyyət Cəmiyyəti (AMC; ESC;ЕОК)

Təşkilatın Venesiyada yaradılması (1950). Əsas məqsəd və vəzifələri. Təşkilata üzvlük. Təşkilatın orqanları:

Baş məclis - təşkilatın ali orqanı kimi. Məclisin iclasları və onların keçirilməsi müddəti. İcraiyyə komitəsi və büronun seçilməsi. Katiblik və onun funksiyaları.

Avropa Mədəniyyət Cəmiyyətinin YUNESKO-da məsləhətverici statusu. Cəmiyyətin əsas fəaliyyət istiqamətləri. Təşkilatın beynəlxalq mədəni əməkdaşlığın genişlənməsi işində, sülh problemləri və beynəlxalq siyasətdə sağlam mühitin formalaşması istiqamətində rolu.

Təşkilatın mətbu orqanı. Rəsmi dili (fransız). Qərargah mənzili (Venesiya).

### 12.7. Avropa Nüvə Tədqiqatları İnstitutu (ANTİ; CERN; ЦЕРН)

Avropa Nüvə Tədqiqatları Təşkilatı haqqında sazişin imzalanması (1953) və ratifikasiya edildikdən sonra təşkilatın yaradılması (1954). Təşkilatın məqsəd və vəzifələri.Təşkilatın orqanları:

➢ **Şura,** onun üzvlərinin seçilməsi prinsipi və səlahiyyət müddəti. Şuranın iclasları, onun səlahiyyətləri və əsas fəaliyyət istiqamətləri.

➢ **Komitələr.** İcraedici, Elmi siyasət və Maliyyə Komitəsi. Onların vəzifə, səlahiyyət və fəaliyyət istiqamətləri.

➢ **Baş direktor.** Təşkilatın qanuni nümayəndəsi və ali inzibati məmuru kimi. Onun təyin edilməsi və vəzifələri. Departamentlər və onların fəaliyyət istiqamətləri.

Təşkilatın üzvləri. Təşkilatın qərargah mənzili (Cenevrə).

## 12.8. Beynəlxalq Hüquq İnstitutu

Belçikanın Hente şəhərində Argentina, Belçika, italiya, Niderland, ABŞ, Rusiya, İsveçrə və Şotlandiyanın bir qrup tanınmış hüquqşünas alimləri tərəfindən beynəlxalq hüquq institutunun yaradılması (1873). İnstitutun məqsəd və vəzifələri.

İnstitutun üzvləri: həqiqi və müxbir üzvlər Onların seçilməsi prinsipi. İnstitutun quruluşu:

➢ **Sessiya** - institutun əsas orqanı kimi. Onun çağrılması və səlahiyyətləri. Sessiyanın qəbul etdiyi sənədlər və onların hüquqi qüvvəsi;

➢ **Büro,** onun vəzifə və səlahiyyətləri.

İnstitutun əsas fəaliyyət istiqamətləri. İnstitutda aparılan tədqiqatlar və onların beynəlxalq münasibətlərdə hüquq normalarının tənzimlənməsinə təsiri.

İnstitutun nəşri və onda əksini tapan sənədlər. Rəsmi dilləri (ingilis və fransız). Qərargah mənzili (Brüssel).

## 12.9. Avropa Kosmik Agentliyi (AKA; ESA; EKA)

Avropa Kosmik Agentliyinin yaradılması haqqında Konvensiyanın imzalanması (1975) və ratifikasiya edilməsi. Avropa Kosmik Tədqiqatlar Təşkilatı və Raket daşıyıcıları hazırlamaq üzrə Avropa Təşkilatının birləşməsi. Avropa Kosmik Agentliyinin yaradılması (1980). Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın orqanları:

➢ **Şura** - üzvləri, məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Məcburi və fakültativ proqramlar və onların qəbul edilməsi.



Proqramlar üzrə Şura və müxtəlif komitələrin fəaliyyəti. Şuranın iclaslarının keçirilməsi.

➢ **Baş direktor.** Seçilməsi, vəzifə və səlahiyyətləri. Direktorluğun tərkibi və fəaliyyəti.

Avropa Kosmik Agentliyinin fəaliyyət sahələri. Elm sahəsi, yer üzərində müşahidələr, telekommunikasiya, kosmos texnologiyası, yerüstü infrastruktur və kosmos nəqliyyat sisteminin yaradılması.

Uzunmüddətli Avropa kosmos siyasətinin hazırlanması. 1995-2005-ci illərdə kosmosun öyrənilməsi üzrə Avropanın uzunmüddətli planı və Avropa Kosmik Agentliyinin Yer üzərində müşahidə üzrə proqramın qəbul edilməsi (1991-1992).

Təşkilatın fəaliyyət mərkəzləri:

- Kosmos texnikası və kosmik fəzanın tədqiqinin Avropa mərkəzi (Nordviq- Niderland);
- Kosmik əməliyyatların Avropa mərkəzi (Darmştadt-Almaniya);
- Kosmik Tədqiqatların Avropa İstitutu (Fraskati-İtaliya);
- Astronavtların hazırlığının Avropa Mərkəzi (Köln-Almaniya);
- Kosmodrom və uçuş kompleksi (Kuru-Fransa Qvianası);
- Əlaqələr üzrə Büro (Vaşinqton-ABŞ);
- Avropa İttifaqı ilə rabitə üzrə Büro (Brüssel-Belçika).

Təşkilatın qərargah mənzili (Paris).

## 12.10. Hava Naviqasiyasının Təhlükəsizliyi üzrə Avropa Təşkilatı (Avronəzarət; EUROCONTROL; Евроконтрол)

Hava naviqasiyasında təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında konvensiyanın imzalanması (1960). Hava Naviqasiyasının Təhlükəsizliyi üzrə Avropa Təşkilatının yaradılması (1963). Təşkilatın məqsəd və vəzifələri. Avropada

aeronaviqasiya nəzarətinin harmonizasiyası və inteqrasiya proqramının hazırlanması və həyata keçirilməsi (European Air Traffic Control Harmonization and Integration Program, EATCHIP). Təşkilatın orqanları:

- **Daimi Komissiya.** Üzvləri. Vəzifə və səlahiyyətləri. Fəaliyyəti.
- **Hava əlaqələrinə xidmət üzrə agentlik** - icraedici orqan kimi. Üzvləri və vəzifələri.
- **Direktorlar Komitəsi.** Üzvləri. Vəzifələri. Fəaliyyət istiqamətləri.
- **Baş direktor.** Onun vəzifə və səlahiyyətləri.

Brüsseldəki hava əlaqələrinin Avropa İidarəçilik Mərkəzi və onun fəaliyyəti. Maastrixdə hava naviqasiya nəzarəti. Mərkəzi və onun məqsəd və vəzifələri. Brüsseldə "EATCHIP hazırlanması və həyata keçirilməsi" departamentləri. Parisdə Avronəzarət eksperimental mərkəzi və onun fəaliyyəti. Lüksemburqdakı Avronəzarət Hava Naviqasiya İnstitutu. Hava Naviqasiyalarının təmirinə görə Brüsseldə fəaliyyət göstərən Rüsumların yığılması idarəsi.

Avropada aeronaviqasiya nəzarətinin harmonizasiyası və inteqrasiya proqramının həyata keçirilməsi planının qəbul edilməsi (1990) və bu proqramın həyata keçirilməsi məsələləri. Təşkilatın qərargah mənzili (Brüssel).

## Mövzu 13. İSLAM KONFRANSI (ƏMƏKDAŞLIQ) TƏŞKİLATI (İKT/İƏT; OIC; ОИК) - 4 saat

### 13.1. İslam Əməkdaşlıq Təşkilatının yaradılması, məqsəd və vəzifələri

İslam dövlətlərinin vahid beynəlxalq təşkilatda birləşmək ideyası. Səudiyyə Ərəbistanı kralı Feysəlin bütün müsəlman dövlətləri başçılarına müraciəti (1965). 14 müsəlman ölkəsinin xarici işlər nazirlərinin Qahirə toplantısı (14 avqust, 1969). İslam dövlətlərinin yüksək səviyyədə Zirvə konfransının keçirilməsi haqqında təklifin qəbul edilməsi.

Rabatda (Mərakeş) müsəlman ölkələrinin dövlət və hökumət başçılarının I konfransının keçirilməsi (sentyabr, 1969). Qəbul edilmiş bəyannamə və onun mahiyyəti. İslam Konfransı Təşkilatının (İKT) üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Kəraçidə keçirilən konfransı (1970).

İKT-nın üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Ciddədə keçirilən III konfransında təşkilatın Nizamnaməsinin qəbul edilməsi (mart, 1972). İKT Nizamnaməsinin təşkilatın məqsəd və vəzifələrinin, prinsiplərinin və fəaliyyət istiqamətlərinin müəyyən edilməsində rolu.

İKT-nın beynəlxalq statusunun müəyyən edilməsi. İKT-nın BMT ilə əməkdaşlığı və təşkilatın BMT yanında müşahidəçi statusu alması. BMT Baş Məclisinin 36-cı sessiyasında "BMT ilə İKT arasında əməkdaşlıq haqqında" qətnamənin qəbul edilməsi (1975). İKT-nın məqsəd və prinsipləri.

### 13.2. İslam Əməkdaşlıq Təşkilatının orqanları

- **Dövlət və hökumət başçılarının Zirvə konfransı** - ali orqan kimi. Zirvə toplantısının keçirilməsi müddəti. Konfransın vəzifə və səlahiyyətləri. Zirvə toplantısında qətnamə və qərarların qəbul edilməsi prinsipi. Sənədlərin qəbul edilməsi zamanı üzv dövlətlərin mövqeyi və rolu: Rabat (1969), Lahor (1974), Məkkə və Taif (1981), Kasablanka (1984), Küveyt (1987), Dakar (1991), Kasablanka (1994), Tehran (1997), Qətər (2000), Kuala-Lumpur (2003).
- **Xarici işlər nazirlərinin Konfransı** - təşkilatın siyasi orqanı kimi. Üzvləri. Vəzifə və səlahiyyətləri. Konfransın keçiril-

məsi müddəti. Konfransın funksiyaları və fəaliyyət istiqamətləri. Qəbul edilən qərarların qəbul edilməsi prinsipi. Konfransın müəyyən etdiyi prosedura qaydaları. Konfransın rəsmi dilləri (ərəb, ingilis və fransız).

➢ **Baş Katiblik** - icraçı orqan kimi. Onun funksiya və səlahiyyətləri. Baş Katib, onun müavinləri və onların seçilməsi müddəti. Baş Katibin əsas vəzifə və səlahiyyətləri. Baş Katibliyin qərargahı: Ciddə (Qüds azad edilənə kimi). Təşkilatın fəaliyyət göstərmiş Baş Katibləri. Katibliyin əsas fəaliyyət istiqamətləri.

İKT-nın yanında ona tabe olan və onun konfranslarının qərarları ilə təsis edilən yardımçı orqanlar:

**I. Daimi Komitələr və ona rəhbərlik edən dövlətlər:** -İqtisadi və ticarət əməkdaşlığı üzrə daimi komitə (Türkiyə); -informasiya və mədəni işlər üzrə daimi komitə (Seneqal); -Elmi-texniki əməkdaşlıq üzrə daimi komitə (Pakistan).

**II. Digər komitələr:** -İqtisadi, mədəni və sosial işlər üzrə komitə; -Qüds komitəsi; -İslam Sülh komitəsi; -Maliyyə işləri üzrə daimi komitə; -Maliyyə nəzarət komitəsi; -Əfqanıstan komitəsi; -Cənubi Afrika və Namibiya Komitəsi; Sahil ölkələri ilə İslam həmrəyliyi komitəsi; - Filippin müsəlmanlarının vəziyyəti ilə əlaqədar dördtərəfli komitə; -Fələstin komitəsi;

**III. Aşağı qurumlar:**

- İslam Tarixi, İncəsənəti və Mədəniyyətinin Araşdırma Mərkəzi. Yaradılması (1960). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri. Tehranda "İslam tarixi, incəsənəti və mədəniyyəti araşdırmalar mərkəzinə dair" qətnamənin qəbul edilməsi və onun mahiyyəti (dekabr, 1997). Qərargah mənzili (İstanbul).;

- Beynəlxalq İslam Mədəni İrsini qoruma komissiyası. Yaradılması. Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri. Qərargah mənzili (İstanbul);



- İslam ölkələrinin statistik, iqtisadi, sosial tədqiqatlar mərkəzi. Yaradılması. Məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərargah mənzili (Ankara);

- İslam Fiqh (hüquq) Akademiyası. Yaradılması. Məqsəd və vəzifələri. Fəaliyyəti. Qərargah mənzili (Ciddə);

- Ticarət və İnkişaf Mərkəzi. Yaradılması. Məqsəd və vəzifələri. Fəaliyyəti. Qərargah mənzili (Kasablanka);

- Texniki Peşə Təhsili və Tədqiqatlar Üzrə İslam Mərkəzi. Yaradılması (1977). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri. Qərargah mənzili (Dəkkə);

- İslam elm, texnologiya və inkişaf qurumu. Yaradılması, məqsəd və vəzifələri. Fəaliyyət istiqamətləri. Qərargah mənzili (Ciddə);

- İslam Həmrəylik Fondu və Vəqfi. Yaradılması, məqsəd və vəzifələri. Qərargah mənzili (Ciddə);

- Qüds fondu və vəqfi. Yaradılması, məqsəd və vəzifələri. Qərargah mənzili (Ciddə).

**IV. Mütəxəssis qurumlar.** Onların təsis edilməsi və üzvlük sistemi.

- İslam İnkişaf Bankı (Ciddə);
- Beynəlxalq İslam Xəbərləri Agentliyi (Ciddə);
- İslam Ölkələri Radio və Televiziya verilişləri təşkilatı (Ciddə);
- İslam elm, tədris və mədəniyyət təşkilatı (Rabat);
- Beynəlxalq İslam Qızıl Aypara Komitəsi (Benqazi).

➢ İslam İnkişaf Bankı. Ciddə şəhərində Maliyyə nazirlərinin konfransında təşkilatın əsasının qoyulması (dekabr, 1973). Lahorda keçirilən xarici işlər nazirlərinin konfransında İslam İnkişaf Bankının yaradılması (fevral, 1974). Bankın məqsəd və vəzifələri. Bankın məlahiyyətləri, fəaliyyətinin əsas istiqamətləri. Bankın ali orqanları: Müdirlər və direktorlar Şurası. Bankın prezidenti, onun seçilməsi və səlahiyyət müddəti;

➢ Beynəlxalq İslam Xəbərlər Agentliyi. Yaradılması (1970). Məqsəd və vəzifələri. Təşkilatın məclisi. İcraedici Şura. Baş direktorun seçilməsi və onun səlahiyyət müddəti. Agentliyin əsas fəaliyyət istiqamətləri;

➢ İslam Dövlətləri Radio Verilişləri və Televiziya Xidməti. İKT Xarici işlər nazirlərinin VI konfransında təşkilatın yaradılması (1975). Təşkilatın sessiyaları.İcraedici Şura və onun üzvləri. Onların səlahiyyət müddəti. Təşkilatın funksiya və səlahiyyətləri. Fəaliyyət istiqamətləri. Qərargah mənzili (Ciddə).

**V. Əlaqədar qurumlar.** Təsis edilməsi və üzvlük sistemi:

- İslam Armatur Birliyi (Ciddə);
- İslam Sement Birliyi (Türkiyə);
- İslam Ticarət, sənaye və mal dəyişmə palatası (Kəraçi);
- İslam Paytaxtları Təşkilatı. Yaradılması (1978). Qərargah mənzili (Məkkə);
- İslam Paytaxtlar Birliyi (Məkkə);
- İslam İdman Yarışları Federasiyası (Ər-Riyad);
- Beynəlxalq Ərəb-İslam Məktəbləri Birliyi (Ər-Riyad);
- Beynəlxalq İslam Banklar Birliyi (Qahirə).

İKT yanında fəaliyyət göstərən digər qurumlar və komitələr:

➢ "Beşlər Qrupu". Onun yaradılması (may, 1980). Üzvləri. Məqsəd və vəzifələri. Fəaliyyəti.

➢ Beynəlxalq İslam Məhkəməsi. Dövlət və Hökumət başçılarının III Zirvə konfransında Məhkəmənin yaradılması (1981). Məqsəd və vəzifələri. Səlahiyyətləri və əsas fəaliyyət istiqamətləri;

➢ İslam Ticarəti İnkişafetdirmə Mərkəzi. Yaradılması (1981). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri. Qərargah mənzili (Tanjer);

➢ İslam İnkişaf Fondu. Yaradılması (1981). Məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri;



➢ İslam Elmi Texniki İnkişaf Fondu. Yaradılması. Məqsəd, vəzifə və fəaliyyət istiqamətləri. Qərargah mənzili (Ciddə);

İslam Konfransı Təşkilatının beynəlxalq statusu və fəaliyyəti.

İKT-nın sülhün və beynəlxalq təhlükəsizliyin qorunması sahəsində, eyni zamanda münaqişənin nizama salınması istiqamətində fəaliyyəti. Təşkilatın Yaxın Şərq münaqişəsi, Fələstin problemi, İran-İraq müharibəsi, İraq-Küveyt münaqişəsi, Əfqanıstan məsələsi, Tacikistan problemi, Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması üçün göstərdiyi səylər. İKT-nın qəbul etdiyi sənədlər və onların mahiyyəti.

İKT Xarici İşlər Nazirlərinin Konfransında İsrailin Qüdsü işğal etməsinə etiraz bildirməklə üzv dövlətlərə müraciəti (1980). İsrailin Holan təpələrini işğal etməsini beynəlxalq cinayət adlandırması (16-19 yanvar, 1982). İKT Xarici İşlər Nazirlərinin Konfransında Livanın suverenliyinin təmin edilməsinin təşkilat tərəfindən müdafiə olunması (22-26 avqust, 1982). İKT dövlət və hökumət başçılarının Məkkə və Taifdə keçirilən III konfransında Əfqanıstan Demokratik Respublikasına Sovet hərbi müdaxiləsinin pislənməsi (1981). Və XİN-nin XIII konfransında qoşunların dərhal və tamamilə çıxarılması tələbi (1982).

İKT XİN-nin fövqəladə konfransının qərarına əsasən Nyu-Yorkda İranla İraq arasında vasitəçilik məqsədilə "Xeyirxah xidmətlər missiyası"nın yaradılması (26 sentyabr, 1980) və fəaliyyəti. İKT XİN-nin Qahirədə keçirilən XIX konfransı. İraqın Küveytə təcavüzünü pisləyən qətnamənin qəbul edilməsi (avqust, 1990)

İKT-nin fövqəladə sessiyası (01-02 dekabr, 1992). Bosniya və Hersoqovinada vəziyyəti nizama salmaq və Serbiyada müsəlmanlara qarşı soyqırımın pislənməsi haqqında qətnamənin qəbul edilməsi. 1994 (Kasablanka) və 1997-ci (Tehran) illərdə keçirilən İKT dövlət və hökümət başçılarının Zirvə toplantılarında münaqişələrin nizama salınması sahəsində qəbul edilən sənədlər.

**Azərbaycan Respublikasının İslam ƏməkdaşlıqTəşkilatı ilə əməkdaşlığı.** Azərbaycanın İKT-nın toplantılarına dəvət olunması (may-avqust, 1991). Dakarda keçirilən Dövlət və hökumət başçılarının Zirvə toplantısında Azərbaycanın təşkilata tamhüquqlu 46-cı üzv qəbul edilməsi (08 dekabr, 1991).

Kəraçi şəhərində İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin XXI konfransında Kəlbəcər rayonunun işğalı ilə əlaqədar "Ermənistan-Azərbaycan münaqişəsi haqqında" qətnamənin qəbul edilməsi (aprel, 1993).

1993-cü ilin iyul ayında Ağdam rayonunun işğal edilməsi və Ermənistanın təcavüzkarlığının davam etdirməsi ilə əlaqədar İKT-nın Baş katibi Həmid əl-Qabidin bəyanatı (sentyabr, 1993). Azərbaycanın Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğal edilməsi ilə əlaqədar BMT iqamətgahında İKT üzvü olan ölkələrin xarici işlər nazirlərinin toplantısında qəbul edilmiş bəyanat (23 noyabr, 1993).

İslamabad şəhərində İKT-nın fövqəladə sessiyası və Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qətnamənin qəbul edilməsi (07-09 sentyabr, 1994). İKT-nın Baş katibi Həmid əl-Qabidin Azərbaycana rəsmi səfəri. Keçirilən görüşlər və onların mahiyyəti.

İKT-nın dövlət və hökümət başçılarının Kasablankada (Mərakeş) keçirilən VII Zirvə toplantısında (12-14 dekabr, 1994) Azərbaycan nümayəndə heyətinin iştirakı. Azərbaycan Prezidenti Heydər Əliyevin keçirdiyi görüşlər və onların mahiyyəti. "Ermənistan-Azərbaycan münaqişəsi haqqında" qəbul edilən qətnamə və onun mahiyyəti (14 dekabr, 1994). İKT-nın Baş katibi Həmid əl-Qabidin növbəti bəyanatı və onun mahiyyəti (27 noyabr, 1995).

Cakartada (İndoneziya) İKT üzvü olan ölkələrin xarici işlər nazirlərinin XXIV konfransı (09-13 dekabr, 1996). Konfransda



qəbul edilən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" və onun mahiyyəti. İKT-nın İslamabadda keçirilən növbədən kənar sessiyası (23 mart, 1997) və Azərbaycan nümayəndə heyətinin sessiyada iştirakı. İKT-nın Baş katibi İzzəddin Lərakinin bəyanatı və onun mahiyyəti (sentyabr, 1997).

İKT-nın dövlət və hökümət başçılarının Tehranda keçirilən VIII Zirvə toplantısında (09-11 dekabr, 1997) Azərbaycan nümayəndə heyətinin iştirakı. Azərbaycan Prezidenti Heydər Əliyevin keçirdiyi görüşlər. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" və onun mahiyyəti.

Kuala-Lumpurda (Malayziya) İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin XXVII konfransı (27-30 iyun, 2000). Konfransda qəbul edilən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" və "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamə" və onların mahiyyəti.

İKT-nın dövlət və hökümət başçılarının Dohada (Qətər) keçirilən IX Zirvə toplantısında (12-13 noyabr, 2000) Azərbaycan nümayəndə heyətinin iştirakı. Azərbaycan Prezidenti Heydər Əliyevin keçirdiyi görüşlər və onların mahiyyəti. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" və onun mahiyyəti.

İKT-nın Azərbaycana İqtisadi və humanitar yardım göstərilməsi sahəsində fəaliyyəti. Dohada İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin XXV konfransı (15-19 mart, 1998). "Azərbaycan Respublikasına iqtisadi yardım haqqında qətnamə" və onun mahiyyəti.

Bakıda "Gülüstan" sarayında keçirilən İslam İnkişaf Bankının beynəlxalq investisiya konfransı (21 sentyabr, 1996). Bakıda Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Elmlər Akademiyasının birlikdə keçirdiyi "Qafqazda İslam sivilizasiyasına dair" beynəlxalq simpozium (1998) və onun mahiyyəti.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş III fövqəladə Zirvə görüşündə iştirakı; İKT-nin Seneqalda keçirilmiş XI Zirvə Konfransı və onun qərarları (13-14 mart 2008).

Bakı-İslam Mədəniyyətinin Paytaxtı - 2009; Uqandanın paytaxtı Kampala şəhərində İKT Parlament İttifaqı Konfransının 6-cı sessiyası və onun qərarları (24-31 yanvar 2010); Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Surasının 37-ci sessiyası və onun qərarları (18-20 may 2010); İƏT Baş katibinin Azərbaycana səfəri Azərbaycan – İƏT əməkdaşlığının inkişafında rolu (3-5 iyun 2012); Misir Ərəb Respublikasında keçirilən İƏT-in XII Zirvə toplantısında qəbul edilmiş Yekun Kommunike (6-7 fevral 2013).

BMT tarixində ilk dəfə olaraq, Azərbaycanın təşəbbüsü ilə 2013-cü ilin 28 oktyabr tarixində “Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi” mövzusunda qurumun yüksək səviyyəli iclası; Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının növbəti 41-ci sessiyası və onun qərarları (18-19 iyun 2014); Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində Ciddə şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşü (6 aprel 2015); Küveyt Dövlətində keçirilmiş İƏT XİN Şurasının 42-ci sessiyası və onun qərarları (27-28 may 2015).



## Mövzu 14. ASİYA, AFRİKA, AMERİKA VƏ AVSTRALİYA QİTƏSİ DÖVLƏTLƏRİNİN SİYASİ-İQTİSADİ TƏŞKİLATLARI - 6 saat

### 14.1. Neft İxrac edən Ölkələr Təşkilatı (NİÖT; OPEC; OCEH)

Bağdadda keçirilən konfransda Neft İxrac edən Ölkələr Təşkilatının yaradılması (1960). Kararkas konfransı (1965) və təşkilatın nizamnaməsinin qəbulu. Təşkilatın məqsəd və vəzifələri. Təşkilatın orqanları:

- **Konfrans -** təşkilatın ali orqanı kimi. Üzvləri, iclasları və onun keçirilməsi. Konfransın məqsəd, vəzifə və səlahiyyətləri. Konfransın işində bir sıra komissiyaların fəaliyyəti.
- **İdarəçilər Şurası -** təşkilatın icraiyyə orqanı kimi, onun üzvləri, sessiyalarının keçirilməsi müddəti. Qərarların qəbulu prinsipi. Şuranın vəzifə, səlahiyyət və fəaliyyət istiqamətləri.
- **NİÖT-**nın İqtisadi komissiyası. Tərkibi. Komissiyanın iclasları və onların keçirilməsi müddəti. Komissiyanın vəzifə və səlahiyyətləri.
- **Katiblik.** Baş katib və onun müavinləri. Onların səlahiyyət müddəti və vəzifələri. Baş katib - Təşkilatın qanuni nümayəndəsi kimi. Katibliyin əsas funksiyaları. Müxtəlif sahələr üzrə fəaliyyət göstərən Departamentlər. Katibliyin keçirdiyi seminar və kollokviumlar.

Təşkilatın üzvülük sistemi və üzvləri: Əlcəzair, Qabon, İran, İraq, İndoneziya, Qətər, Küveyt, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Venesuela, Nigeriya, Liviya, Ekvador.

Təşkilatın nəşrləri. Rəsmi dili (ingilis). Qərargah mənzili (Vyana).

## 14.2. Ərəb Dövlətləri (Cəmiyyəti) Liqası (ƏDL; LAS; ЛАГ)

Qahirə konfransı və 7 ərəb dövləti tərəfindən Cəmiyyətin paktının imzalanması (22 mart, 1945). Təşkilatın məqsəd və vəzifələri. Cəmiyyətin orqanları:

- **Ərəb Dövlətləri Cəmiyyətinin Şurası -** təşkilatın ali orqanı kimi. Onun üzvləri. Sessiyaları. Qəbul edilən sənədlər, onların qəbul edilməsi prinsipi və hüquqi qüvvəsi. Şuranın əsas vəzifə və səlahiyyətləri.
- **Komitə -** daimi orqan kimi. Onun işində iştirak edən dövlətlər. Onların müxtəlif sahələr üzrə əsas fəaliyyət istiqamətləri.
- **Baş Katiblik.** Baş Katib, onun vəzifələri və səlahiyyət müddəti. Baş Katibin müavinlərinin təyin edilməsi. Baş Katibliyin əsas funksiyaları.
- **Cəmiyyətin institut və ixtisaslaşdırılmış təşkilatları.** Onların müxtəlif sahələr üzrə fəaliyyət istiqamətləri.
- **İqtisadi Məsələlər üzrə Şura.** Onun üzvləri, vəzifə və səlahiyyətləri.
- **Birgə Müdafiə Şurası.** Onun üzvləri. Şuranın qərarları və onların qəbul edilməsi prinsipi. Şuranın məqsəd və vəzifələri. Fəaliyyəti.
- **Daimi Hərbi Komissiyası.** Onun vəzifə və səlahiyyətləri.

Ərəb Dövlətləri Cəmiyyətinin üzvləri (22). Misirin üzvlükdən çıxarılması və bərpa edilməsi səbəbləri (mart,1979). Təşkilatın informasiya bürosu. Rəsmi dili (ərəb). Qərargah mənzili (Qahirə).

## 14.3. Afrika Birliyi Təşkilatı (ABT; OAU; OAE)

Təşkilatın yaradılmasını şərtləndirən amillər. Afrikanın 30 dövləti və 6 asılı ölkənin iştirak etdiyi beynəlxalq konfransda Afrika Birliyi Təşkilatının təsis edilməsi (1963). Təşkilatın məqsəd,



vəzifə və prinsipləri. Afrika Birliyi Təşkilatının orqanları:

- **Dövlət və hökumət başçılarının konfransı** - təşkilatın ali orqanı kimi. Toplantılar, müzakirə olunan məsələlər və konfransın qəbul etdiyi sənədlər. Qərarların qəbul edilməsi prinsipləri və onların hüquqi qüvvəsi.
- **Xarici İşlər Nazirləri Şurası.** Vəzifə və səlahiyyətləri. İclasları və onların keçirilməsi qaydası. Şuranın çıxardığı qərarların qəbulu prinsipi.
- **Vasitəçilik, barışıq və arbitraj komissiyaları.** Onların əsas məqsəd və vəzifələri. Komissiyaların tərkibi və funksiyaları.
- **Baş katiblik** - daim fəaliyyət göstərən orqan kimi. Onun funksiyaları. Baş katib və onun müavinlərinin seçilməsi prinsipi. Baş katibin əsas səlahiyyətləri.
- **Xüsusi komitələr.** Onların müxtəlif sahələr üzrə bölgüsü və əsas fəaliyyət istiqamətləri.

Afrika Birliyi Təşkilatının üzvü olan dövlətlərin İqtisadi İttifaq yaratmaq haqqında müqavilə imzalaması (1991). İqtisadi İttifaqın əsas məqsəd və vəzifələri. İttifaqın əsas orqanları: **a.** Dövlət və hökümət başçıları Assambleyası; **b.** Nazirlər Şurası; **c.** Panafrika Parlamenti; **ç.** İqtisadi və sosial komissiya; **d.** Məhkəmə; **e.** Baş katiblik; **f.** Texniki komitələr.

ABT-nın Dövlət və hökümət başçıları Assambleyasının "Münaqişələrin nizamlanması, həlli mexanizmləri" adlı qurumun təsis edilməsi (1983). Təşkilatın üzvləri (51). Mərakeşin təşkilatdan çıxmasının səbəbləri. Təşkilatın işçi dilləri (ərəb, ingilis, fransız). Qərargah mənzili (Əddis-Əbəbə).

## 14.4. Amerika Dövlətləri Təşkilatları (ADT; OAS; ОАГ)

Vaşinqtonda ilk Panamerika konfransının keçirilməsi (1889) və Panamerika İttifaqının əsasının qoyulması. Bu İttifaqın əsasın-

da Amerika Dövlətləri Təşkilatının yaradılması ideyası.

Boqotoda qəbul edilmiş nizamnamə əsasında Amerika Dövlətləri Təşkilatının yaradılması (1948). Buenos-Ayresdə keçirilən üçüncü konfransda nizamnaməyə dəyişikliklər və əlavələrin edilməsi (fevral, 1967) və qüvvəyə minməsi (27 fevral, 1970). Təşkilatın məqsəd, vəzifə və prinsipləri.

Amerika Dövlətləri Təşkilatının orqanları:

- **Baş Məclis -** ali orqan kimi. Onun məqsəd, vəzifə səlahiyyətləri və əsas fəaliyyət istiqamətləri. Məclisin üzvləri və toplantıların keçirilməsi. Baş məclisin qərarlarının qəbul edilməsi prinsipi.
- **Xarici işlər nazirlərinin məşvərət məclisi.** Onun məqsəd, vəzifə və səlahiyyətləri. Fəaliyyət istiqamətləri.
- **Komitə və Şuralar:** Müdafiə məsələləri üzrə məsləhət komitəsi. Onun üzvləri, vəzifə və səlahiyyətləri; Daimi Şura. Onun funksiya və səlahiyyətləri; İqtisadi və Sosial Şura, onun məqsəd və vəzifələri. Əsas fəaliyyət istiqamətləri; Elm, təhsil və mədəniyyət məsələləri üzrə Şura, onun əsas fəaliyyət istiqamətləri; İnsan hüquqları üzrə komissiya, yaradılması (1959), üzvləri, məqsəd və vəzifələri. Fəaliyyəti.
- **Baş Katiblik -** təşkilatın daimi mərkəzi orqanı kimi. Onun əsas funksiya və səlahiyyətləri. Baş katib, onun vəzifələri, səlahiyyət müddəti və səsvermə hüququ. Baş Katibliyin müxtəlif sahələr üzrə İcraiyyə Şuraları və onların əsas fəaliyyət istiqamətləri. Baş Katibliyin Bürosu və onun funksiyaları.
- **Xüsusi orqanlar və konfranslar:** Panamerika səhiyyə təşkilatı (Vaşinqton); Amerika Uşaq İnstitutu (Montevideo); Amerika Qadın Komissiyası (Vaşinqton); Panamerika tarix və coğrafiya institutu (Vaşinqton); Amerikanın hindu əhalisinin məsələləri Komissiya (Mexiko); Amerika Kənd təsərrüfatı elmləri institutu (San-Xose).



- **Amerika İnsan hüquqları üzrə Məhkəməsi (San-Xose):** məqsəd, vəzifə və səlahiyyətləri;
- **Amerika Müdafiə Şurası,** əsas funksiya və səlahiyyətləri;
- **Narkotikləri istifadəyə qarşı mübarizə üzrə Amerika Komitəsi (Rio de Janeyro),** onun məqsəd və vəzifələri.
- **Amerika İnkişaf Bankı.** (Vaşinqton)

"Rio-de Janeyro Protokolu" (1947), "Buenos-Ayres Protokolu" (1967), "Kartaxen Protokolu" (1985), "Vaşinqton Protokolu" (1992), "Manaqua Protokolu" (1992) və onların mahiyyəti.

Təşkilatın üzvləri (35). ABŞ-nın təkidi ilə Kubanın təşkilatdan xaric edilməsi (1962). Təşkilatın qərargah mənzili (Vaşinqton).

## 14.5. Karib İttifaqı və Karib Ümumi Bazarı (KİKÜB; CARICOM; КАРИКОМ)

